

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**İordaniya KİV-ləri Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın "Fələstin üçün tək ürək" toplantısının iştirakçılarına müraciətinə geniş yer ayırıb**



3

# "Azərbaycan Cənubi Qafqazın vacib, məsuliyyətli ölkəsidir"



3

Azərbaycan Prezidenti İlham Əliyev Böyük Britaniyanın dövlət katibinin müavini, Avropa və Şimali Amerika üzrə dövlət nazirini qəbul edib

SƏS

№ 214 (6897)

23 noyabr 2023-cü il.
Qiymət 60 qəpik

# Amerikanın anti-Azərbaycan mövqeyinə ADEKVAT CAVAB



6

## YAP nümayəndə heyəti ilə Vyetnam Milli Assambleyasında görüş keçirilib



4

## Böyük Qayıdış ermənilərə necə təsir edib?



14

## Mənzillərin çıxarışla təmin olunması üçün hansı addımlar atılır?



9

## Evlərimizin yoxa çıxan qonaq otaqları



7

## TƏRƏZİ: bir tərəfində ədliyyə, o birində biz...



8

# "SPECA Ölkələrinin Sərgisi: Dayanıqlı inkişaf üçün regional əməkdaşlıq"

## Prezident İlham Əliyev SPECA ölkələrinin sərgisinin açılışında iştirak edib

**Prezident İlham Əliyev noyabrın 22-də Bakı Ekspo Mərkəzində Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün BMT-nin Xüsusi Proqramı - SPECA həftəsi çərçivəsində Azərbaycanın xüsusi təşəbbüsü ilə keçirilən "SPECA Ölkələrinin Sərgisi: Dayanıqlı inkişaf üçün regional əməkdaşlıq" adlı sərginin açılışında iştirak edib. İqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına sərgi ilə bağlı məlumat verdi.**

Paytaxt Bakı Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün BMT-nin Xüsusi Proqramı - SPECA həftəsinə ev sahibliyi edir. Proqrama üzv dövlətlər Azərbaycan, Qazaxıstan, Tacikistan, Qırğızıstan, Türkmənistan, Özbəkistan və Əfqanıstandır. 1998-ci ildə yaradılan proqrama Azərbaycan 2002-ci ildə qoşulub və birliyin fəal üzvlərindəndir. Proqramın məqsədi üzv dövlətlər arasında əməkdaşlığın inkişafı və dünya iqtisadiyyatına inteqrasiyanın dəstəklənməsidir.

SPECA-nın yaradılmasının 25 illiyi münasibətilə təşkil olunan sərgi Azərbaycanın xüsusi təşəbbüsü ilə keçirilir. Bakı Ekspo Mərkəzinin 4 min kvadratmetrlik sahəsini əhatə edən sərgidə ancaq SPECA ölkələrinin stendləri yer alır. Həmin stendlərdə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistandan dövlət müəssisələrinin və özəl şirkətlərin məhsullarının nümunələri nümayiş olunur. Bütün stendlər Azərbaycan tərəfindən vahid dizayn formatında quraşdırılıb. Prezident İlham Əliyev "Azərxalça" ASC tərəfindən hazırlanan "Bizi birləşdirən dəyər" instalyasiyasının üzərindəki ağ örtüyü götürməklə sərginin rəsmi açılışını etdi. Bu instalyasiya SPECA ölkələrinin əməkdaşlıq əlaqələrini əks etdirir.













Sərginin Azərbaycan Milli Stendinin mərkəzində "Made in Azerbaijan" markası ilə istehsal olunan məhsullar nümayiş etdirilir. Burada Azərbaycanın 33 şirkətinin istehsal etdiyi spirtli içkilər, meyvə şirələri, konservləşdirilmiş məhsullar, qənnadı məmulatları, qurudulmuş meyvələr, süd məhsulları, kosmetik vasitə çeşidləri və "ABAD"çı sənətkarların hazırladıqları əl işləri təqdim olunur. Dövlətimizin başçısı Azərbaycan Milli Stendi ilə tanış oldu.

Milli Stend iqtisadi inkişaf, sənaye, kənd təsərrüfatı, rəqəmsal inkişaf və innovasiyalar, nəqliyyat infrastrukturu və tranzit, energetika, müdafiə sənayesi, turizm, işğaldan azad olunmuş ərazilərin bərpası və inkişafı kimi istiqamətləri əhatə edir.

Müdafiə sənayesi naziri Vüqar Mustafayev dövlətimizin başçısına məlumat verdi ki, sərgidə nazirliyin müəssisələrində istehsal olunan müxtəlif növ atıcı silahlar, yaxınməsafəli döyüş vasitələri, minaatanlar, müxtəlif çaplı döyüş sursatları, pilotsuz uçuş aparatları və s. olmaqla 88 adda müdafiə təyinatlı məmulat nümayiş etdirilir. Əvvəlki sərgilərdən fərqli olaraq bu sərgidə ilk dəfə yeni yaradılan "AH-12,7" iriçaplı pulemyot da təqdim olunur.

Sərginin İqtisadi inkişaf blokunda ölkəmizin zəngin iqtisadi resursları, dayanıqlı və inklüziv inkişaf modeli, rəqəmsal iqtisadiyyatın inkişafı istiqamətində görülən işlər, iqtisadi-ticari əlaqələrə dair məlumatlar əksini tapıb. Blokda, həmçinin davamlı makroiqtisadi sabitliyi şərtləndirən amillərlə yanaşı, ölkə iqtisadiyyatına cəlb edilən investisiyalar, dövlətin dəstək mexanizmləri və reallaşdırılan dövlət proqramları barədə məlumat verilir. Qeyd olunur ki, son 20 il ərzində ölkəmizdə ümumi daxili məhsul istehsalı (ÜDM) 6,2 milyard ABŞ dollarından 78,7 milyard ABŞ dollarına çatıb, yəni ÜDM-in real həcmi 4 dəfə artıb. Dövlət büdcəsinin gəlirləri isə 2002-ci ildə olduğu 0,9 milyard dollardan 20 dəfədən çox artaraq 18,01 milyard dollara yüksəlib. Stenddə ölkəmizin iqtisadi inkişaf göstəricilərindən bəhs edən videoçarx da nümayiş olunur.

Sənaye blokunda isə ölkədə aparılan uğurlu sənayeləşmə siyasəti nəticəsində əldə olunan nailiyyətlər, zəngin xammal resursları, sənaye istehsalının rəqabət qabiliyyətinin yüksəldilməsi, sənayenin inkişaf istiqamətləri, eləcə də sənaye parkları və məhəllələri, qeyri-neft sənayesinin dinamik inkişafı barədə məlumatlar əks olunub. Diqqətə çatdırılır ki, 2002-2023-cü illərdə ölkədə 4 min 95 sənaye müəssisəsi yaradılıb. 2002-ci ildə sənayedə istehsal həcmi 1,6 milyard dollar olduğu halda, 2022-ci ildə bu rəqəm 10,4 milyard dollara çatıb.

Sərgidə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası istiqamətində görülən işlər, ərazilərin bərpası, milli iqtisadiyyata sürətli inteqrasiyanın, dayanıqlı inkişafının təmin olunması, ən müasir infrastrukturun qurulması, mədəni-tarixi abidələrin bərpası və layiqli yaşayış şəraitinin yaradılması istiqamətində həyata keçirilən genişmiqyaslı tədbirlərdən bəhs edilir. 2021-2023-cü illər ərzində 10 min kvadratkilometrdən çox ərazidə bərpa-quruculuq işlərinin həyata keçirilməsinə dövlət büdcəsindən 7 milyard dollar vəsait ayrılıb.

Bu sərgidə Ümummilli Lider Heydər Əliyevə həsr edilən xüsusi stend də nümayiş olunur. Burada Ulu Öndərin 100 illiyinə həsr olunmuş videoçarx, Ulu Öndərin həyat və yaradıcılığından bəhs edən 11 kitabın nüsxəsi və markalar təqdim edilir. Bundan başqa, stenddə "AzerGold" QSC tərəfindən Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə istehsal edilən "100 il və onun fövqündə bir irs" adlı qızıl sikkə də nümayiş olunur. Dövlətimizin başçısı SPECA-nın digər üzv dövlətlərinin -Qazaxıstanın, Qırğızıstanın, Tacikistanın, Türkmənistanın və Özbəkistanın stendləri ilə tanış oldu. Stendlərdə üzv ölkələrdə istehsal olunan məhsullar nümayiş etdirilir.

Qeyd edək ki, sərginin məqsədi iştirakçı ölkələrin iqtisadi potensialını nümayiş etdirmək, birlikdə qarşılıqlı faydalı tərəfdaşlıq imkanlarını müzakirə etmək və üzv dövlətlər arasında regional iqtisadi əməkdaşlığı gücləndirməkdir.

Mərkəzi Asiya ölkələri və Azərbaycan iqtisadiyyatı, demoqrafiyası və geosiyasi potensialı ilə dünya siyasətində strateji əhəmiyyətə malik vahid tarixi-mədəni və coğrafi regiondur. Son dövrlər dövlət başçılarının qarşılıqlı səfərləri ölkələr arasında iqtisadi əməkdaşlığın ikitərəfli formatda inkişafını təşviq edir. Eyni zamanda, bu regionun beynəlxalq arenada artmaqda olan nüfuzu ölkələrimizin sıx əməkdaşlığını labüd edir. Bu baxımdan SPECA çərçivəsində fəaliyyət çoxtərəfli əməkdaşlığın inkişafı üçün münbit zəmin yaradır. Sərgidə İqtisadiyyat Nazirliyi və "Azərxalça" ASC-nin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Triptix" üçlü xalça kompozisiyası təqdim olunur. Burada, həmçinin "44" kolleksiyası da nümayiş olunur. Bu xovlu xalça kolleksiyası "Qasımuşağı" adlı Qarabağ xalçasının nadir kompozisiyasından ilhamlanaraq məhdud sayda - 44 ədəd toxunub.

Sərginin açıq sahəsində iştirakçı ölkələr tərəfindən nəqliyyat vasitələri, həmçinin sənaye, kənd təsərrüfatı, müdafiə sənayesi, energetika və digər sahələrə aid avadanlıqlar və ağır texnikalar nümayiş olunur. Sərginin sonunda sahibkarlar üçün biznes-forumun keçirilməsi nəzərdə tutulur.

# "Azərbaycan daim İslam həmrəyliyi prinsipinə sadiqdir"

*Prezident İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatının Baş katibini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Hissein Brahim Tahanı qəbul edib. Dövlətimizin başçısı İslam Əməkdaşlıq Təşkilatının Baş katibinin BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının (SPECA) tədbirində iştirakının önəmini qeyd edərək Hissein Brahim Taha ilə bundan əvvəlki görüşlərini məmnunluqla xatırladı.***

Prezident İlham Əliyev hər zaman Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə göstərdiyi dəstəyə görə İslam Əməkdaşlıq Təşkilatına, İslam həmrəyliyinə görə təşkilatın üzv dövlətlərinə bir daha təşəkkürünü bildirdi. İki ay əvvəl Azərbaycanın öz suverenliyini tam şəkildə bərpa etdiyini vurğulayan dövlətimizin başçısı Qarabağ münaqişəsinin artıq tarixdə qaldığını qeyd etdi.

Azərbaycanın da daim İslam həmrəyliyi prinsipinə sadiq olduğunu vurğulayan Prezident İlham Əliyev ölkəmizin təşkilatın fəaliyyətini dəstəklədiyini, o cümlədən quruma könüllü maliyyə ianələrini bundan sonra da davam etdirəcəyini diqqətə çatdırdı.

Azərbaycanın, eyni zamanda, Qoşulmama Hərəkatına dördillik uğurlu sədrlik etdiyini deyən dövlətimizin başçısı ölkəmizin sədrliyi dövründə təsisat çərçivəsində aparılan fəaliyyətlər barədə də məlumat verdi. Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində bu günlərdə Bakıda dekolonizasiya mövzusuna həsr olunmuş mötəbər tədbirlərin keçirildiyini, ölkəmizin bu prosesə öz dəstəyini verdiyini qeyd edərək, İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin də tarixən müstəmləkəçilikdən əziyyət çəkdiklərini, bu mövzunun təşkilatın gündəliyində saxlanmasının vacibliyini vurğuladı.

Xoş sözlərə görə minnətdarlığını bildirən İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü təmin etməsi, eyni zamanda, Qarabağda aparılan bərpa-quruculuq işləri ilə əlaqədar təbriklərini çatdırdı.

Baş katib İslam Əməkdaşlıq Təşkilatının fəaliyyətinin dəstəklənməsini, Azərbaycanın könüllü maliyyə ianələrini çox yüksək qiymətləndirdi, bunun təşkilat üçün vacib olduğunu qeyd etdi. Hissein Brahim Taha qəbula, İslam Əməkdaşlıq Təşkilatının tədbirlərinin mütəmadi olaraq Azərbaycanda keçirilməsinə və ölkəmizin maliyyə dəstəyinə görə Prezident İlham Əliyevə şəxsən təşəkkürünü bildirdi.

Görüşdə İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində Azərbaycanda keçirilən tədbirlərin, o cümlədən Təşkilata üzv ölkələrin əmək nazirlərinin V konfransının və Bakıda İslam Əməkdaşlıq Təşkilatının Əmək Mərkəzinin yaradılmasının əhəmiyyəti qeyd olundu.

# "Azərbaycan Cənubi Qafqazın vacib, məsuliyyətli ölkəsidir"

Azərbaycan Prezidenti İlham Əliyev Böyük Britaniyanın dövlət katibinin müavini, Avropa və Şimali Amerika üzrə dövlət nazirini qəbul edib



**Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 22-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının xarici işlər, Birlik Ölkələri və İnkişaf Ofisində Parlamentlə əlaqələr üzrə dövlət katibinin müavini, Avropa və Şimali Amerika üzrə dövlət naziri Leo Dokertini qəbul edib. Dövlətimizin başçısı Leo Dokertinin Azərbaycana səfərinin ikitərəfli, eləcə də regional gündəliyin müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirdi.**

Azərbaycanın gözəl bir ölkə olduğunu qeyd edən Leo Dokerti səfərindən məmnunluğunu ifadə etdi, ölkələrimiz arasında əlaqələrin zəngin tarixə malik olmasından qürur hissi duyduğunu vurğuladı. Qonaq Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının regional sülh və sabitliyin təmin olunmasına hər hansı bir töhfə vermək işinə müsbət yanaşdığını dedi, uzun illərdir Azərbaycan ilə çox mühüm siyasi, iqtisadi, ticarət və enerji əlaqələrinin mövcudluğu ilə fəxr etdiklərini bildirdi.

Leo Dokerti vurğuladı ki, Azərbaycan yalnız Avropanın mühüm enerji təchizatçısı deyil, həm də Cənubi Qafqazın vacib, məsuliyyətli ölkəsidir və Azərbaycansız Avropada sülh və təhlükəsizlik olmazdı.

Prezident İlham Əliyev iqtisadi əlaqələrimizin enerji sahəsində əməkdaşlıqdan başladığını, BP şirkəti ilə uzun illər səmərəli və qarşılıqlı etimada əsaslanan işbirliyinin həyata keçirildiyini qeyd etdi. Dövlətimizin başçısı ölkəmizə qoyulan investisiyaların bizə göstərilən inamı nümayiş etdirdiyini məmnunluqla vurğuladı.

Prezident İlham Əliyev qeyd etdi ki, BP şirkətinin uzun illər bundan əvvəl Azərbaycanda fəaliyyətə başlaması ölkəmizin iqtisadi inkişafında və respublikamızda investisiya layihələrinin həyata keçirilməsində mühüm rol oynayıb. Dövlətimizin başçısı hazırda Azərbaycan-BP əməkdaşlığının bərpaolunan enerji sahəsi ilə bağlı yeni mərhələyə qədəm qoyduğunu dedi və bunun region üçün çox gözəl nümunə olduğunu bildirdi.

Ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu qeyd edən Azərbaycan Prezidenti bir daha Leo Dokertinin səfərinin əlaqələrimizin inkişafı ilə bağlı məsələlər barədə fikir mübadiləsinin aparılması baxımından əhəmiyyətinə toxundu. Dövlətimizin başçısı vurğuladı ki, antiterror tədbirləri nəticəsində Azərbaycan suverenliyini tam şəkildə bərpa etdi.

Prezident İlham Əliyev Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin imzalanması üçün artıq hər hansı əngəlin olmadığını deyərək ölkəmizin regional sülh gündəliyini dəstəklədiyini, sülh müqaviləsi və iki ölkə arasında münasibətlərin normallaşdırılması üçün Azərbaycanın Ermənistan ilə dialoqa hazır olduğunu vurğuladı. Qonaq da öz növbəsində ölkəsinin bu prosesə dəstək verməyə hazır olduğunu ifadə etdi.

## İordaniya KİV-ləri Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın "Fələstin üçün tək ürək" toplantısının iştirakçılarına müraciətinə geniş yer ayırıb





İordaniyanın "Petra" dövlət informasiya agentliyinin rəsmi səhifəsində, aparıcı "Al-Ray" və "Al-Anbat" rəsmi qəzetlərinin elektron versiyasında, eləcə də geniş oxucu kütləsinə malik olan www.ammonnews.com, www.johinanews.com, www.alsaa.net, www.nbnjo.com, www.nayrouz.com, www.assabeel.net, www.marayanews.com və www.cleopatranews.com elektron xəbər portallarında Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın noyabrın 15-də İstanbulda keçirilən dövlət və hökumət başçıları xanımlarının "Fələstin üçün tək ürək" toplantısının iştirakçılarına ünvanlandığı müraciəti əsasında "Azərbaycan Fələstin məsələsini daim diqqətdə saxlayır" sərlövhəli məqalə dərc edilib.

Ölkəmizin İordaniyadakı səfirliyindən AZƏRTAC-a bildiriblər ki, məqalədə birinci xanım Mehriban Əliyevanın müraciətinə istinad edilərək, İsrail-Fələstin münaqişə zonasında gərginliyin miqyasının gündən-günə genişlənməsi və daha böyük insan faciəsinə səbəb olmasının ciddi narahatlıq doğurduğu, Azərbaycanın hərbi əməliyyatların dərhal dayandırılması ilə bağlı çağırışları dəstəklədiyi və son gərginliklə əlaqədar oktyabr ayında BMT Baş Assambleyasında qəbul edilmiş qətnamənin lehinə səs verdiyi, ölkəmizin beynəlxalq hüquqa və BMT-nin müvafiq qətnamələrinə uyğun olaraq İsrail-Fələstin münaqişəsinin "iki dövlət" prinsipi əsasında həllinin tərəfdarı olduğu diqqətə çatdırılıb.

Yazıda, həmçinin birinci xanım Mehriban Əliyevanın müraciətinə istinadla Azərbaycan Respublikasının fələstinlilərə BMT-nin Fələstinli Qaçqınlara Yardım və İşlərin Təşkili üzrə Yaxın Şərq Agentliyi xətti ilə dəfələrlə humanitar və maliyyə yardımı göstərdiyi, eyni zamanda, ölkəmizin Fələstinə siyasi və maliyyə dəstəyinin cəlb edilməsi məqsədilə bir sıra beynəlxalq tədbirlərə ev sahibliyi etdiyi vurğulanıb.

Məqalədə birinci xanım Mehriban Əliyevanın müraciətində toxunduğu Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın müddətdə davam edən təcavüzünün nəticələri, BMT Təhlükəsizlik Şurasının icra edilməyən qətnamələri və 44 günlük Vətən müharibəsi, eləcə də bu ilin sentyabr ayında antiterror tədbirləri nəticəsində Ermənistan silahlı qüvvələrinin qalıqlarının mövcudluğuna və separatizmə son qoyularaq suverenliyimizin tam bərpa olunması da öz əksini tapıb.

# YAP nümayəndə heyəti ilə Vyetnam Milli Assambleyasında görüş keçirilib

**Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinin Vyetnam Sosialist Respublikasına səfəri davam edir. Səfər çərçivəsində noyabrın 21-də nümayəndə heyəti Vyetnam xalqının öndəri Ho Şi Minin məqbərəsini və vaxtilə yaşadığı evini ziyarət edib.**

Sonra YAP nümayəndə heyətinin Vyetnam Milli Assambleyasının Xarici əlaqələr komitəsinin sədr müavini Do Man Tien ilə görüşü olub. Vyetnam parlamentində fəaliyyət göstərən Vyetnam-Azərbaycan parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun üzvlərinin də iştirak etdiyi görüşdə iki ölkə arasında müxtəlif sahələri əhatə edən münasibətlərin uğurla inkişaf etdiyi və əməkdaşlığın dərinləşdirilməsi üçün geniş potensialın mövcud olduğu qeyd edilib. Görüş zamanı parlamentlərarası əlaqələrin perspektivləri də müzakirə olunub.

Vyetnam Milli Assambleyasının Xarici əlaqələr komitəsi sədrinin müavini Do Man Tien



lik etdiyi nümayəndə heyətinin səfəri çərçivəsində YAP ilə VKP arasında Əməkdaşlıq Sazişinin imzalanmasının tarixi əhəmiyyətə malik olduğunu, partiyalar arasında münasibətlərin keyfiyyətcə yeni mərhələyə yüksəldiyini bildirib: "Səfər çərçivəsində istər Azərbaycan-Vyetnam münasibətləri, istərsə də Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında çoxşaxəli əməkdaşlığa dair ətraflı fikir mübadiləsi apardıq. Birlikdə görəcəyimiz işlər həm partiyalar, həm də ölkələrarası münasibətlərin inkişafına təkan verəcək".

YAP Sədrinin müavini hər iki ölkənin parlamentləri arasında əməkdaşlığın önəminə diqqət çəkərək bu amilin qanunvericilik sahəsində təcrübə mübadiləsi və beynəlxalq platformalarda qarşılıqlı dəstəyin təmin olunması













Azərbaycan ilə Vyetnam arasında münasibətlərin çoxşaxəli və səmərəli olduğunu söyləyib. Parlamentlərarası əlaqələrin əhəmiyyətindən danışan Do Man Tien ölkəsinin Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycan ilə əməkdaşlığın genişləndirilməsinə böyük önəm verdiyini qeyd edib.

Do Man Tien Azərbaycan ilə Vyetnam arasında qlobal arenada, xüsusilə də beynəlxalq təşkilatlar çərçivəsində işbirliyinin hər iki ölkənin maraqlarının qorunması baxımından vacib olduğunu bildirib. Azərbaycanın dinamik inkişafının dost xalq olaraq vyetnamlıları da sevindirdiyini deyən Do Man Tien yeni çağırışlar fonunda iki ölkə arasında işbirliyinin dərinləşdirilməsi üçün mövcud imkanlardan səmərəli istifadə edilməsinin əhəmiyyətini diqqətə çatdırıb.

Yüksək qonaqpərvərliyə və səmimi münasibətə görə təşəkkürünü bildirən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycan ilə Vyetnamın qarşılıqlı faydalı işbirliyinə xüsusi əhəmiyyət verdiklərini qeyd edərək ölkələrimiz arasında fəal siyasi dialoqun və beynəlxalq təşkilatlarda səmərəli əməkdaşlığın olduğunu diqqətə çatdırıb. Tahir Budaqov inkişaf yolunda əmin addımlarla irəliləyən hər iki ölkənin dostluq və tərəfdaşlıq münasibətlərini birgə səylərlə daha da gücləndirmək əzmində olduğunu vurğulayıb. 44 günlük Vətən müharibəsində Azərbaycanın möhtəşəm Qələbə qazanaraq yeni reallıqlar yaratdığını söyləyən YAP Mərkəzi Aparatının rəhbəri hazırda regionda mövcud olan vəziyyət və qarşıda duran hədəflər barədə ətraflı məlumat verib.

Tahir Budaqov siyasi partiyaların dövlətlərarası münasibətlərin inkişafında önəmli rola malik olduğunu vurğulayaraq Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası (VKP) arasında əməkdaşlığın əhəmiyyətini diqqətə çatdırıb. Partiyaların həm ikitərəfli formatda, həm də beynəlxalq platformalar çərçivəsində əlaqələrin genişləndirilməsinə xüsusi önəm verdiyini bildirən Tahir Budaqov rəhbərbaxımından əhəmiyyətli olduğunu bildirib. Tərəflər qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıblar.

Qeyd edək ki, YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinə partiyanın Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynova, YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov, partiyanın Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov və Mərkəzi Aparatın Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsi müdirinin müavini Hülya Məmmədli daxildir.

# "UNESKO-nun mövqeyi qərəzlidir"

*KOMİTƏ SƏDRİ ŞƏRH ETDİ*

"Azərbaycan dövləti UNESKO-ya dəfələrlə müraciətlər ünvanlayıb erməni faşistlərin törətdikləri vəhşiliklərlə tanış olmağı xahiş etsə də, qarşı tərəf ölkəmizə səfər etməmiş, bu müraciətlərə lazımı münasibət bildirməmişdir. Halbuki müraciət edilmədən belə bu qurum öz vəzifəsini dəyərləndirməli, məhv edilmiş tarixi-mədəni, dini abidələrimizin, ziyarətgahlarımızın taleyi barədə düşünməli və ciddi tədbirlər görməli idi." Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.

Komitə sədri vurğulayıb ki, ancaq müharibədən əvvəl və sonra bunlar baş vermədi və xalqımızın başına gətirilən müsibətlərə, şəhər və kəndlərimizin, tarixi abidələrimizin məhv edilməsinə laqeydlik göstərildi. "Bu gün UNESKO Xankəndinə gəlmək üçün müraciət edir, oradakı və-




ziyyətlə tanış olmaq fikrindədir. Azərbaycan müraciəti müsbət cavablandıraraq, Ağdamdakı dağıntıları, törədilmiş vəhşilikləri də qeydə almağı vacib hesab etsə də, çox təəssüflər olsun ki, qurumun missiyası buna tərəddüdlə yanaşmışdır. Ağdamdan keçib Xankəndinə getməyi, dağıdılmış, tamamilə məhv edilmiş şəhərin yalnız iki abidəsinə nəzər salmağı lazım bilən bu beynəlxalq qurumun mövqeyi qərəzlidir, başadüşülən deyildir. Onlar yer üzərindən silinən, tamamilə dağıdılan yaşayış məskənlərimizi, milli-mənəvi abidələrimizə qarşı törədilən vəhşilikləri görmək və qeydə almaq istəmirlər. Yalnız ermənilərin yaşadığı Xankəndinə baş çəkməyi lazım bilirlər ki, bununla da Azərbaycan razılaşa bilməz və haqlı olaraq dövlətimiz qurumun şərtlərini qəbul etməmişdir.

UNESKO-nun mövqeyi göstərir ki, bu beynəlxalq qurum ermənipərəst qüvvələrə, xüsusilə, Fransanın rəsmi dairələrinə xidmət edir və təcavüzkar dövlətin tapşırıqlarını yerinə yetirir. Faktlar bunu sübut edir. Çünki Azərbaycan dövləti 44 günlük müharibədən sonra dəfələrlə bu qurumun nümayəndələrini ölkəmizə dəvət etmişdir, ancaq müsbət cavab almamışdır. Əksinə, onlar təcavüzkar Ermənistanın adi çağırışlarına dərhal cavab vermiş və vəhşilərin yanında olduqlarını nümayiş etdirmişlər. Qurum bu gün də məkrli mövqeydədir. Onlar Azərbaycan həqiqətlərini, çəkdiyimiz əzab-əziyyətləri, tarixi zəfərimizi, haqlı-ədalətli davranışlarımızı görmək istəmirlər. Çünki əməlləri, fikirləri ikili standartlara əsaslanır, şəxsi maraqlara söykənir.

Ağdamdan "yan keçərək" Xankəndinə getmək arzusu bu qurumun ölkəmizə sifarişlə gəlməsini, anti-Azərbaycan siyasəti yürüdən dövlətlərin tapşırıqlarını yerinə yetirilməsini aydın göstərir və erməni faşistlərinin çirkin əməllərinə xidmət edir. Azərbaycan bunu yaxşı bilir, görür və ona görə də missiyanın gəlişinə razılıq verməməkdə haqlıdır", - deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

# YAP nümayəndə heyəti Vyetnam-Azərbaycan Dostluq Assosiasiyasının sədri ilə görüşüb

**Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti noyabrın 22-də Vyetnam Dostluq Assosiasiyaları İttifaqının nəzdində fəaliyyət göstərən Vyetnam-Azərbaycan Dostluq Assosiasiyasının sədri, Vyetnam Dövlət Auditi sədrinin müavini Danq The Vin ilə görüşüb. Görüşdə xalqlarımız arasında dostluq əlaqələrinin tarixi əhəmiyyətindən bəhs olunub və hazırda müxtəlif sahələri əhatə edən dövlətlərarası əməkdaşlığın önəmi vurğulanıb.**

Qonaqları salamlayan Danq The Vin Vyetnam-Azərbaycan Dostluq Assosiasiyası haqqında ətraflı məlumat verib. O, rəhbərlik etdiyi qurumun öz fəaliyyətini Azərbaycan və Vyetnam xalqları arasındakı uzunmüddətli səmimi dostluq münasibətlərinə uyğun qurduğunu qeyd edib. Danq The Vin ötən əsrin ortalarında müharibələrdən əziyyət çəkən Vyetnamın bərpası istiqamətində mühüm işlər görüldüyünü, Azərbaycan xalqının vyetnamlılara dəstəyinin yüksək qiymətə layiq olduğunu bildirib.













Vurğulanıb ki, üzvlərinin əksəriyyətini Azərbaycanı yaxından tanıyan vyetnamlıların təşkil etdiyi Vyetnam-Azərbaycan Dostluq Assosiasiyası onların Azərbaycan xalqı ilə bağlarının qorunub saxlanılmasına və daha da möhkəmləndirilməsinə xidmət edən işlər görür. O, vaxtilə Azərbaycanda ali təhsil almış vyetnamlı gənclərin bir çoxunun Vyetnamın ictimai-siyasi həyatında fəal rol oynadıqlarını, iki xalq arasında əlaqələrin möhkəmləndirilməsinə mühüm töhfələr verdiklərini söyləyib.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycan və Vyetnam xalqları arasında tarixi köklərə və dostluq prinsipinə əsaslanan səmimi münasibətlərin mövcud olduğunu diqqətə çatdırıb. 1959-cu ildə Vyetnamın o zamankı Prezidenti Ho Şi Minin Azərbaycana və 1983-cü ildə Ümummilli Lider Heydər Əliyevin SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi Vyetnama səfərlərinin xalqlarımız arasında münasibətlərin və ölkələrarası əməkdaşlıq əlaqələrinin qurulmasında müstəsna rol oynadığını deyib. Onun sözlərinə görə, Azərbaycanın müstəqilliyinin bərpasından sonra yaradılan diplomatik əlaqələr və iki ölkə prezidentlərinin qarşılıqlı səfərləri münasibətlərin dinamik inkişafı üçün geniş imkanlar formalaşdırıb. Azərbaycan ilə Vyetnam arasında təhsil, turizm, biznes, mədəniyyət və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi imkanlarından bəhs edən Tahir Budaqov Vyetnam-Azərbaycan Dostluq Assosiasiyasının bu sahədə önəmli platformalardan olduğunu vurğulayıb.

Xalq diplomatiyasının Azərbaycan-Vyetnam münasibətlərinin inkişafı baxımından önəmli olduğunu söyləyən YAP Sədrinin müavini iki ölkənin gəncləri arasında sıx təmasların qurulmasının əhəmiyyətini diqqətə çatdırıb. Azərbaycanın regionlarının geniş iqtisadi potensiala malik olduğunu və uğurla inkişaf etdiyini vurğulayan Tahir Budaqov işğaldan azad edilmiş ərazilərdə nəhəng bərpa-quruculuq işlərinin həyata keçirildiyini bildirərək "Vyetnamlı dostlarımızın bu prosesdə iştirakından məmnun olarıq" deyib.

Görüşdə Vyetnam-Azərbaycan Dostluq Assosiasiyasının fəxri sədri Nqiem Vu Xay Azərbaycan və Vyetnam xalqları arasında dostluğun nümunəvi olduğunu diqqətə çatdıraraq birgə təşəbbüslərin bundan sonra da hər iki tərəfə fayda gətirəcəyini qeyd edib. Görüşdən sonra YAP nümayəndə heyəti Vyetnam Hərb Tarixi Muzeyini ziyarət edib.

Xatırladaq ki, YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinə partiyanın Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynova, YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov, partiyanın Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov və Mərkəzi Aparatın Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsi müdirinin müavini Hülya Məmmədli daxildir.

# "Fransa anlamalıdır ki, Azərbaycan üçün müharibə səhifəsi bağlanıb"



"Azərbaycanın ərazi suverenliyini bərpa etməsi dost ölkələri sevindirsə də, bəzi düşmən qüvvələri və dövlətləri də məyus edib. Bu siyahının başında Fransa, ABŞ, Kanada və bir sıra beynəlxalq təşkilatlar dayanır. Bu təşkilatların əksəriyyəti erməni lobbisinin maliyyəsi ilə qidalanır. Onlar mərkəzdən idarə olunaraq Azərbaycana qarşı total hücuma keçiblər. Bu qeyri-bərabər hibrid müharibəsi dövründə ölkəmiz onlara qarşı müqavimət göstərir və bütün dünyaya bəyan edir ki, Azərbaycan beynəlxalq hüququn prinsiplərini icra edib. İndiyədək beynəlxalq təşkilatların və böyük dövlətlərin həll etməli olduğu məsələləri Azərbaycan öz gücünə bacarıb". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Vüqar İskəndərov deyib.

Onun sözlərinə görə, ölkə başçısı İlham Əliyev İraq Prezidenti ilə görüşdə çox maraqlı məqamlara toxunub: "Prezident bəyanatında bildirib ki, Fransa hökumətindən gələn yanlış mesajlar əslində, Ermənistan hökumətində və ola bilsin, ictimai rəyində onların Azərbaycana qarşı hücuma başlaya biləcəyinə dair illuziya yaradır. Həqiqətən də Fransa anlamalıdır ki, artıq müharibə səhifəsi bağlanıb. Azərbaycan sülh gündəliyi olan yeni səhifə açıb. Bunun üçün ölkəmiz əlindən gələni etməyə çalışır".

Deputat sözlərinə davam edərək bildirib ki, Fransa kimi bir ölkə uzaq məsafədən ona yad olan bölgəyə soxulmağa çalışır və Ermənistana silah satmaqla bunu açıq şəkildə bəyan edir: "Təbii ki, bir dövlətin hər hansı başqa dövlətlə strateji münasibət formalaşdırması onun öz işidir. Amma həmin dövlətlər anlamalıdır ki, bölgədə yeni müharibə ocağı yaratsalar, həmişə olduğu kimi cavablarını alacaqlar. Yəni, Ermənistan yenidən müharibəyə cəhd etsə, heç kim ona kömək etməyəcək və nəticə eyni olacaq. Üç il əvvəl də nə Fransa, nə ABŞ Ermənistana kömək etmədi. Bu yenə də belə olacaq. Ona görə də bu dövlətlər yeni reallıqları qəbul etməli, Azərbaycanın qalibiyyətini həzm etməli və bölgəyə soxulmaqdan əl çəkməlidir".

*Ləman Sərraf*

# Amerikanın anti-Azərbaycan mövqeyinə
# ADEKVAT CAVAB




**Azərbaycanın Qarabağ iqtisadi rayonundan öz xoşları, yaxud da qondarma rejimin, eləcə də rəsmi İrəvanın təkidi ilə köç edib gedən ermənilərin geri qayıtması məsələsi ilə bağlı fikir səsləndirənlər, iddialar irəli sürənlər qətiyyən ədalətli yanaşma sərgiləmirlər. Əgər ədalətli yanaşsaydılar, öz yurd-yuvalarını tərk etməyə müxtəlif təhdidlərlə məcbur edilmiş azərbaycanlıların, indi Ermənistan ərazisi kimi tanınan, əslində isə, bizə məxsus olan torpaqlara qayıtmalarını da gündəmə gətirərdilər. Təkcə ermənilərin yox, ümumiyyətlə, köç edən insanların taleyi, həqiqətən də, onları maraqlandırsaydı və məsələyə ədalətli yanaşılsaydı, bildirərdilər ki, ermənilərin Azərbaycana məxsus ərazilərdə bu zamana qədər yaşadıqları yerlərə qayıtmaları, məhz azərbaycanlıların öz ata-baba yurdlarına, bir vaxtlar yaşadıqları ərazilərə qayıtması ilə paralel şəkildə təmin edilməlidir.**

Ermənilərin etnik təmizləmə siyasəti fonunda öz yurd-yuvalarını bir zamanlar tərk edən azərbaycanlıların haqları, daha dəqiq desək, onların da öz doğma yurdlarına, evlərinə geri dönməsi məsələsi köç edib gedən ermənilərin Qarabağa geri dönüşü barədə ağız dolusu danışanların yadına düşmürsə, bunu onların yadına sala bilərik. Biz onların yadına sala bilərik ki, ermənilərdən fərqli olaraq, azərbaycanlılar başqalarına deyil, özlərinə məxsus olan ərazilərdən, özü də sivil qaydada yola salınmaqla yox, məcburi şəkildə, ölüm və işgəncələrlə təhdid olunaraq köç etməyə məcbur ediliblər. Xatırlada bilərik ki, azərbaycanlılar bir-iki ay bundan əvvəl köç etməyiblər, onillər boyudur məcburi köçkün həyatı yaşayırlar və bunun da səbəbkarı, baiskarı etnik təmizləmə siyasəti yürüdən ermənilərdir. Sual oluna bilər ki, köç edib gedənlərin geri dönüşünü təmin etmək tələbi niyə Ermənistanın qarşısında bu onillər boyu qoyulmayıb? Niyə bircə dəfə də olsun azərbaycanlıların köç etməsi, daha doğrusu, erməni millətçiləri, separatçıları, terrorçuları tərəfindən köç etməyə məcbur edilməsi müzakirəyə də olsa çıxarılmayıb? Bəlkə də Qərbin, eləcə də Avropanın bir çox ermənipərəst dairələri ermənilərin göydən zənbillə düşdüyü qənaətində ola bilərlər, amma rəsmi Bakı adekvat cavab verməkdən və azərbaycanlıların da geri dönməsi barədə eyni şəkildə tələblə çıxış etməkdən qətiyyən çəkinmir və biz yaxşı bilirik ki, onlar göydən düşənlər yox, on doqquzuncu əsrin əvvəllərində Cənubi Qafqaza köçürülənlərdir. Yaxşı bilirik ki, indi ərazi iddiasında olanlar, dənizdən-dənizə mifini uyduran və şişirdənlər bizim ərazilərimizə köçürülən həmin o haylardır və bu faktı da xatırlatmaq tam yerinə düşür.

Haylara məxsus olan aqressiv və radikal millətçiliyin, ekspansionizmin pislənilməsi, Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərində erməni separatçılarının etnik təmizləmə siyasəti aparmasının qınanılması gərəkdiyi halda, ölkəmizin hədəfə alınması, özü də haqsız olaraq, köç edib gedən ermənilərlə bağlı iddialar irəli sürülməsi heç bir normaya sığışa bilməz. Məhz bu baxımdan da amerikalılar bizi heyrətləndirməkdə davam edirlər və öz fikirləri ilə, dinləmələri ilə hələ də erməni dəyirmanına su tökməyi ədalətli olmaqdan, qanunlara, ali dəyərlərə hörmətlə yanaşmaqdan daha üstün tuturlar. ABŞ Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsində "Dağlıq Qarabağın gələcəyi" mövzusunda dinləmələr zamanı manipulyasiyalara əl atanların anti-Azərbaycan ritorikası bunu növbəti dəfə təsdiq etmiş oldu.

Ərazilərində qanunsuz silahlıların ağ bayraq qaldıraraq təslim olmasına, Qarabağın bütün ərazilərində öz bayrağının ucaldılmasına, suverenliyinin tam təmin olunmasına nail olan Azərbaycana qarşı Vaşinqtonun anti-Azərbaycan ritorikasının daha da artmaqda olduğu göz önündədir. Sonuncu anti-terror əməliyyatlarının ardınca, daha dəqiq desək, oktyabr ayının əvvəlində Senatın Xarici Əlaqələr Komitəsinin sədri Ben Kardinin Azərbaycana hərbi yardımın dayandırılması və Ermənistanda demokratik islahatların dəstəklənməsinə çağırışlar etməsi ölkəmizə qarşı aparılan kampaniyanın gücləndiyini təsdiq edir. O həmin Ben Kardindir ki, Azərbaycanın öz ərazisində antiterror tədbirlərini "planlı etnik təmizləmə" kimi qiymətləndirmişdi və buna görə heç utanmaq fikir də yox idi. Oxşar ittihamlarla Robert Menendesin də Azərbaycana qarşı çıxış etməsini nəzərə aldıqda görürük ki, amerikalılar ölkəmizə qarşı çəkinmədən ikili yanaşma sərgiləməkdədirlər. Ümumiyyətlə, görünən odur ki, Azərbaycanın öz ərazilərində anti-terror əməliyyatları keçirməsindən, suverenliyini tam təmin etməsindən ABŞ narahatdır. Amma Azərbaycanın Qafqazda əsas strateji tərəfdaş olduğunu hər dəfə bəyan edən ABŞ narahat olmaq əvəzinə, unutmamalıdır ki, Azərbaycan olmadan nə Cənubi Qafqazda, nə də Mərkəzi Asiyada siyasəti ola bilməz. Cənubi Qafqaza marağı olan rəsmi Vaşinqton, erməniperəst mövqeyinin ardınca Azərbaycan tərəfinin rəsmi səfərləri təxirə salmasından öz nəticəsini çıxarmalıdır. Nəticə çıxarılmalıdır ki, Azərbaycan milli maraqları çərçivəsində istədiyinə nail olub, işğal altında olan ərazilərini tamamilə işğaldan azad edib, ərazi bütövlüyünü də, suverenliyini də tam təmin edib və heç bir ölkənin təzyiq dili ilə danışmasına da, apardığı müstəqil siyasətinə qarışmasına, müdaxilə etməsinə də imkan verməyəcək. Üstəlik, erməni lobbisinin təsiri ilə Amerikada, yaxud hansısa ölkədə keçirilməsi nəzərdə tutulan hərhansı görüşdə iştirak etməkdən Azərbaycanın imtina etməsi də təsadüfi sayıla bilməz və erməniperəst mövqedə olanlar bu adekvat cavabdan da lazımi nəticələrini artıq çıxarıblar.

Amerikalılar yaxşı bilirlər ki, Azərbaycan heç zaman beynəlxalq hüququn norma və prinsiplərinə qarşı olmayıb və rəsmi Bakının yürütdüyü siyasət beynəlxalq hüquq normaları çərçivəsindədir. Ortada olan faktlar da sübut edir ki, bununla bağlı nəinki Amerikanın, ümumiyyətlə, heç bir ölkənin Azərbaycana qarşı hansısa iddiası ola bilməz. Çünki heç kim üçün sirr deyil ki, Azərbaycan Qarabağ probleminin həllinə nail olmaq üçün düz 30 ilə yaxın diplomatik gündəliyə səbirlə əməl etdi. Bu illər ərzində rəsmi Bakı, artıq keçmişdə qalan münaqişənin sülh yolu ilə həll olunmasına tərəfdar olduğunu dəfələrlə bəyan etdi. Hər kəs bilir ki, həmin bu illər ərzində Ermənistan tərəfi danışıqlara xələl gətirmək, məsələnin həllinə mane olmaq üçün bütün vasitələrə əl atdı, amma Azərbaycan tərəfi səbr nümayiş etdirdi. Lakin işğalçı ölkənin öz təxribatlarını davam etdirməsi, separatçı rejimin yeni ərazilər iddiası ilə təxribatlarını artması fonunda məsələnin hərbi yolla həll edilməsinin vacibliyi bəlli oldu və Azərbaycan düz 30 il müddətində ermənilər tərəfindən işğal altında saxlanılan torpaqlarını cəmi 44 gün davam edən müharibə ilə işğaldan azad edərək, qarşı tərəfi kapitulyasiya sənədinə imza atmağa məcbur etdi. Ermənistanın qanunsuz silahlı dəstələrinin qeyd-şərtsiz ərazilərimizi tərk etmələrini tələb edən məlum BMT qətnamələrinin icrasını Azərbaycan reallaşdırdı. Özü də ölkəmiz bunu öz gücü, öz potensialı ilə etdi və nəinki BMT-nin, yaxud da ABŞ-ın, ümumiyyətlə heç kimin dəstəyi olmadan qələbə qazandı. Heç kimin yardımı olmadan qazanılan bu qələbə ilə də Azərbaycanın ərazi bütövlüyü təmin olundu. Bu isə o deməkdir ki, rəsmi Bakının nəinki ABŞ, yaxud da BMT, ümumiyyətlə, heç kimin qarşısında öhdəliyi yoxdur və bu, isbata ehtiyacı belə olmayan bir aksiomdur. Məhz elə bu məqamın istənilən diplomatik görüşlərdə bildirilməsi, ölkəmizin öz gücü ilə qələbəni qazanması, ərazi bütövlüyünü heç bir yardım almadan bərpa etməsi barədə bəyan edilməsi, ABŞ kimi bir ölkənin timsalında bir çoxlarının anti-Azərbaycan mövqeyinə adekvat cavabdır və bizim heç kimin qarşısında öhdəliyimizin olmadığı eyhamıdır.

Təkcə hərbi müstəvidə deyil, istənilən mənada Azərbaycan həqiqətən də Ermənistandan fərqli olaraq heç bir ölkədən asılı deyil. Bunu amerikalılar da, onların diqtəsi ilə ölkəmizə qarşı mövqe sərgiləyən avropalılar da yaxşı bilirlər. Yaxşı bilirlər ki, Azərbaycan özü-özünü təmin edən ölkədir. Bilirlər ki, Azərbaycan təkcə özünü deyil, Avropanın bir çox ölkələrini mavi yanacaqla, enerji resursları ilə təmin edir və kimdənsə yardım gözləməsini xəyal belə etmək mümkün deyil. Əgər kimlərsə, hansısa yardımlar etməmək barədə qərar qəbul olunmasını ölkəmizə qarşı təsir, yaxud təzyiq kimi başa düşürlərsə, yanılırlar. Çünki Azərbaycanın xaricdən göndərilən yardımlara qətiyyən ehtiyacı yoxdur. Hərbi yardımı dayandırdıqları ilə nə isə etdiyiklərini düşünənlər isə bilsinlər ki, Azərbaycan sülh gündəminə hər zamankı kimi sadiqdir və yenə də regionun hərbiləşdirilməsinə qətiyyən ehtiyac duymur. Azərbaycan regional və qlobal layihələrin gerçəkləşməsi üçün əməli addımlar atır, iqtisadi inkişaf yolundadır və bu yol özü də ölkəmizə qarşı olanlar üçün çox təsirli bir adekvat cavab olaraq qiymətləndirilir. Çünki hər kəs yaxşı bilir ki, sürətli, dinamik iqtisadi inkişafda olan Azərbaycan artıq bütün dünyada söz sahibidir və kimlərinsə ölkəmizin əleyhinə hansısa sözü heç bir məna kəsb edə bilməz.

Fransanın ardınca məhz ABŞ da öz ədalətsiz mövqeyi ilə Ermənistan-Azərbaycan danışıqlarında qərəzsiz vasitəçi rolunu itirmiş oldu. Hər halda, Azərbaycan və Ermənistan xarici işlər nazirləri səviyyəsində 2023-cü il 20 noyabr tarixində Vaşinqtonda keçirilməsi nəzərdə tutulan görüşü rəsmi Bakının dayandırmaq qərarından sonra ABŞ qərəzsiz vasitəçi rolunu itirmiş olduğunu anlamaya bilməz. Sözsüz ki, rəsmi Bakının belə bir qərara gəlməsi özü də amerikalıların anti-Azərbaycan ritorikasına adekvat cavab olaraq qəbul edilir.

***İnam Hacıyev***



## YAP və VKP-nin gənclər təşkilatları arasında əməkdaşlıq məsələləri müzakirə olunub





**Vyetnamda səfərdə olan Yeni Azərbaycan Partiyası (YAP) nümayəndə heyətinin Vyetnam Kommunist Partiyası Ho Şi Min Kommunist Gənclər İttifaqının katibliyinin katibi Nquen Tıonq Lam ilə görüşü keçirilib.**

Görüşdə hər iki ölkədə həyata keçirilən gənclər siyasətindən, o cümlədən gənclərin ictimai-siyasi həyatda fəallığının artırılması istiqamətində görülən işlərdən bəhs olunub. Azərbaycan və Vyetnam gəncləri arasında təmasların sıxlaşdırılmasının vacibliyi vurğulanıb.

Nquen Tıonq Lam partiyasının gənclər təşkilatı ilə Yeni Azərbaycan Partiyasının Gənclər Birliyi arasında əməkdaşlığın qurulması istiqamətində birgə fəaliyyətə hazır olduqlarını bildirib. O, hər iki partiyanın gənclər qolları arasında görüşlərin və ortaq layihələrin təşkilinin əhəmiyyətini vurğulayıb.

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov Azərbaycanda həyata keçirilən gənclər siyasəti və Yeni Azərbaycan Partiyasının bu istiqamətdə məqsədyönlü fəaliyyəti barədə ətraflı məlumat verib. O qeyd edib ki, iki dost ölkənin gəncləri Azərbaycan-Vyetnam əlaqələrinin inkişafına layiqli töhfə vermək əzmindədirlər. B.İslamov Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında imzalanan Əməkdaşlıq Sazişinin icrasının hər iki partiyanın gəncləri arasında əlaqələri gücləndirəcəyinə əminliyini bildirib. Görüşdə gələcək əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb və müvafiq təkliflər diqqətə çatdırılıb.

# Evlərimizin yoxa çıxan qonaq otaqları

**Bu gündən deyil, lap uzaq da deyil, yaxın keçmişdən söhbət açmaq istəyirəm. O keçmiş ki, başqa bir dünyamız vardı. Həyat da bugünkündən çox fərqli idi. Bayram, toy, yas mərasimləri, qohumluq əlaqələri, uşaqlıq-gəncliyimiz, evlərimiz kimi...**

Elə evlərimizdən və bu evlərdə yaratdığımız qonaq otaqlarından danışmaq istəyirəm. Xalqımızın qonaqpərvərlik mədəniyyətini özündə ehtiva edən qonaq otaqlarından. Hansı ki, həmin otaqlar müasir dövrün evlərində artıq yoxdur. Çox şeylər kimi, uzaq kəndlərimizdə qalıb. O da ata-babalarımızdan oğullara miras qalan evlərdə. Dünənimizin çox böyük mənəvi dəyərini özündə əks etdirən həmin qonaq otaqlarından söhbət açaq...



## Evlərin bünövrəsi qoyulanda...





Vaxtilə bütün şəhər və kəndlərimizdə yeni ailələr özlərinə ev tikərkən ata-baba qaydalarına əsaslanırdılar. Belə ki, istənilən ev layihəsində qonaq otağı da nəzərdə tutulurdu. Və ev tikilib başa çatanda artıq bu evə gələcək qonaqların otağı da hazır olurdu.

Daha sonra evin xanımı bu otağı bütün otaqlardan fərqli şəkildə bəzəyirdi. Burada hər şeyin daha gözəl olmasına, göz oxşamasına, xoş görünməsinə çalışırdı. Qonağın bu otaqda rahatlığı üçün bütün şərait yaradılırdı. Onun üçün ən yaxşı qab-qacaq ayrılıb dolaba yığılırdı. Bu qablar ancaq qonaq gələndən-gələnə ortalığa çıxarılırdı. Ən rahat yorğan-döşək, gözəl dəsmallar, yataq dəstləri qonaq üçün saxlanırdı.

Payızda bağ-bağçanın məhsulu yığılanda meyvələr də seçilib yaxşısı qonaq üçün ayrılıb zirzəmilərin bir tərəfinə yığılırdı. Yayda qadınların qışa tədarük etdikləri mürəbbə, kompot və turşuların da ən yaxşıları seçilib saxlanma otaqlarında bir kənardan yığılırdı ki, qarışıq düşüb istifadə olunmasın, bunlar qonaq üçündür.

Kəndlərimizdə qadınlar qış üçün qovurma hazırlayanda, meyvə qurudanda belə ailə üçün olandan əlavə qonaq üçün bir qaba da yığılırdı və ayrıca saxlanırdı. Deyərdilər ki, qəflətən evə qonaq gələr, qoy evdə hazır yemək, süfrəyə qoymağa bir şey olsun.

Bütün bunlar isə xalqımızın ailə dəyərlərinin, mənəvi keyfiyyətlərinin, eyni zamanda qonağa verilən dəyərin göstəricisi idi.

Qonaq otaqları isə demək olar ki, heç boş qalmırdı. Çünki evlərimiz daim qonaqlıqaralı olurdu. Kənddə yaşayanların yayda, şəhərdə yaşayanların qışda evləri qonaqla dolub-boşalırdı. Bu otaqlar da tez-tez öz sahiblərinə qovuşurdu. İstər qohum-əqrəba, istər əsgər, tələbə, yol, iş yoldaşı, uşaqlıq dostu, istərsə də yoldan ötən Allah qonağı ilə...





## Qonaq Allah qonağıdır...

Xalqımıza məxsus bir dəyəri filmlərdə də görmüşük, kitablardan da oxumuşuq, hətta ata-babalarımızdan da eşitmişik ki, qapı döyülən zaman ev sahibi, "kimdir" deyəndə və "Allah qonağı" sözünü eşidəndə, "Allaha da qurban olum, onun qonağına da" deyərək cavab veriblər. Beləliklə də bizdə bineyi-qədimdən belə bir fikir formalaşıb ki, qonaq Allah qonağıdır. Elə məhz buna görə də onun yeri də həmişə evimizin yuxarı başı olub. Biz Ulu Yaradana hansı hörmətlə yanaşırıqsa, evlərimizin qapısını döyüb içəri dəvət etdiyimiz qonaqla da eyni sayğı və hörmətlə davranmışıq, onlarla Allahın verdiyi ruzini bölüşmüşük.

Məhəmməd Peyğəmbər (s) buyururdu ki, qonaq öz ruzisini gətirər və ev əhlinin günahlarını aparar. Hələ belə bir hədis də var ki, Məhəmməd Peyğəmbər qonağın necə qarşılanması ilə bağlı kimliyini gizlədərək qapı-qapı gəzmiş və bunu müşahidə etmişdir. Yaxşı qarşılandığı evlərin ruzisi artmışdır.

Bəli, qonaq gəlməmiş onu ruzisi gələr evlərimizə. Biz bəzən bunun fərqində olmasaq da, lakin bu, belədir. Dəfələrlə olur ki, evdə nəyə isə ehtiyac olanda, o, heç gözləmədiyimiz təqdirdə yerini alır. Deməli, evimizə qonaq gələcək. Bu da onun özündən əvvəl gələn ruzisidir. Elə bütün bunları illərin sınaqlarından keçirən atalarımız da "Qonaq bərəkət gətirər", "Qonaq sevənin süfrəsi boş olmaz", "Uşaqsız ev susuz dəyirman, qonaqsız ev gülsüz bağçadır" və onlarla bu kimi deyimlər də söyləmişlər.

El arasında qonaqsız evlər haqında hələ bu sözləri də deyirlər: filankəsi qapısını özü açıb, özü bağlayır. Yəni heç bir qonağı-qarası olmur.

Bəli, qonaqqəbuletmə, onun rahatlığını təmin etmək heç də asan iş deyil. Lakin bunu çox böyük mərdliklə, mədəniyyətlə və ürək açıqlığı ilə bacaran xalqımız elə bu cəhətlərə görə də qonaqpərvər xalq kimi tanınmışdır.

## Bəs bu gün?..

Bu gün, xeyr, artıq şəhərlərdə yaşayan insanlar qonaq qəbul etmək ənənəsindən xeyli aralı düşüblər. Bu adət-ənənə yenə də kəndlərimizdə qalıb. Bu gün də kəndlərdə ailələr özləri üçün tikdikləri yeni evlərdə bir otağın artıq olmasına çalışırlar ki, gələn qonaqlarını həmin otaqlarda ağırlaya-əzizləyə bilsinlər.

İndi şəhərlərdə əksər adamlar qonaqlarını kafe və restoranlarda qarşılayıb, oradan da yola salır. Və yaxud da evlərimizdə qonaq otağı nəzərdə tutmadığımızdan qohum-əqrəba bir dəfə qonağımız olandan sonra əlavə otağın-şəraitin olmadığını görür, gedir və bir daha qayıtmır. Beləliklə, biz qonaqpərvərlik kimi özünəməxsus xüsusiyyətimizi yavaş-yavaş itirməyə başlayırıq.

Bu gün şəhərlərdə özümüzün istirahət etdiyimiz, yəni divan-kreslo, qonaq gələndən-gələnə mətbəxdən çıxıb üzərində əyləşdiyimiz və yemək yediyimiz stol-stul, televizor olan otaqlara qonaq otaqları adı verilib. Elə mağazalarda satılan mebellər də "qonaq mebeli" adlandırılır. Lakin bu mebel dəstlərinin içərisində çarpayı yoxdur. Bəs belə isə bunun nəyi qonaq mebelidir? Yaxşı, qonaq gəlib bizim istirahət salonumuzda əyləşdi, yedi-içdi, bəs harada yatmalıdır? Ortalıqda-divandamı? Yəqin müasir qonaq mebelləri bunu nəzərdə tutur. Bunlar isə təbii ki, müasir dövrümüzün özünəməxsusluğudur.

Beləliklə də biz bizim olanları unudub tarixin arxivinə göndəririk. Kəndlərimizin sürətlə boşaldığı bir dövrdə, hər kəsin "şəhər-şəhər" deyib şəhərlərə üz tutduğu bir zamanda isə tək oralarda qalan bu adət-ənənələrin aqibəti heç də ürəkaçan deyil.

## Allaha da, onun qonağına da qurban

Kəndlərimiz nə qədər boşalsa da, qonaq otaqlı evlər yenə orada qalır. Geniş evlər, həyətlər, şüşəbənd-aynabəndlər qapımızı açan hər bir qonağı ağırlaya bilməyimiz üçün yetərli və uyğundur. Bu gün nəinki qonaqqəbuletmə ənənələrimiz, bayram, toy, yas və digər mərasimlər də kəndlərimizdə az-çox yaşadılır. Nədənsə insanlar ki, şəhərlərdə yaşamağa başlayır, kənddə gördüklərini, illərlə əhatəsində yaşadıqları adət-ənənələri unutmağa başlayırlar. Görəsən bu, şəhərin havasındandırmı, suyundandırma, yoxsa, nədəndir?

Nəticədə isə bir-birindən dəyərli, əziz, mentalitetimizin yaraşığı, dəyərlərimizin tacı olan adətlərimizi bir-bir sıradan çıxarırıq. Lakin onlar o qədər lazımlıdır ki, bunun qeydinə hər kəs qalmalıdır. Onlar yoxsa, biz biz olaraq qala bilərikmi? Biz başqalaşarıq, kimliyimizi unudarıq, boşluğa, yoxluğa düşmüş kimi hisslərlə yaşayarıq.

O evə ki, qonaq gəlmir, o evin şənliyi də yoxdur, deyirlər. Belə isə haradadır qonaqlarımız? Bəs nə üçün qonaq otaqlarını layihələrdən çıxardırıq? Evlərimizdə qonaq otaqları barədə ta düşünmürük. Hansı ki, bunu şəhərlərimizdə də yaşatmaq olardı. Ev alarkən otaq sayı çox olanını almaqla, bunu yaşada bilərdik.

Hələ də gec deyil. Qonaqpərvərliklə bağlı xüsusiyyətlərimizin başlıca göstəricisi olan qonaq otaqlarını evlərimizdən kənar salmayaq. Ev tikərkən də, alarkən də bunu nəzərə alaq və ata-baba ənənələrimizi yaşatmağa çalışaq.

Qoy qapılarımızı hər zaman qonaq döysün. Evlərimizdə, süfrə başında qonaqlarımız əyləşsin. Heç bir ev qonaq-qarasız olmasın. Nə vaxtadək bu qapıları özümüz açıb özümüz bağlayacağıq? Bu, əslində darıxdırıcı deyilmi? Belə isə kəndlərimizdəki kimi, şəhərlərimizdə yaşayanlar da ürəklərinin qapısını bir qədər geniş açmaqla qonaqlı-qaralı olmağı bacara bilərlər.

Qapılarımızın döyülməsi, "kimdir", deməyimiz, "Allah qonağı" eşitməyimiz və "Allaha da, onun qonağına da qurban olum" deməyimiz ümidi ilə...

***Mətanət Məmmədova***

# Keçəl və dərman əhvalatı

## İDDİA: Ermənistan NATO ölkələrindən yeni silahlar alır ki, Kiyevə ötürsün

Ermənistan rəhbərliyinin noyabrın 22-23-də Minskdə KTMT çərçivəsində keçirilən müntəzəm tədbirlərdə iştirakdan imtina etməsi fonunda sosial şəbəkələrdə və mediada bu ölkədən Kiyevə mümkün silah tədarükü ilə bağlı materiallar yayılır. Ukrayna Silahlı Qüvvələrinin Ermənistan Silahlı Qüvvələrində xidmətdə olan "Toçka-U" operativ-taktiki raket kompleksinin (OTRK) raketləri ilə təmin olunması ilə bağlı versiyalar müzakirə olunur. Ermənistan Müdafiə Nazirliyinin mətbuat katibi Aram Torosyan belə məlumatı təkzib edib. Lakin rəsmi İrəvanın hərəkətlərinə baxsaq, Moskvada müttəfiqinə inamsızlıq artır.





Bundan əvvəl bəzi KİV-lər Ermənistanın hələ də onlar üçün raketləri olan "Toçka-U" taktiki raket sistemlərini, eləcə də digər silahları Kiyev rejiminə təhvil verməyə hazırlaşdığını yazıblar. Belə operativ-taktiki kompleksinin uzun fasilədən sonra yenidən Ukrayna Silahlı Qüvvələri tərəfindən Rusiya Federasiyası ərazisindəki hədəflərə qarşı istifadə olunmağa başlaması xüsusi əməliyyat zonasındakı bir çox mənbələr tərəfindən bildirilib. Belə ki, "Rybar" Teleqram kanalının məlumatına görə, Ukrayna Silahlı Qüvvələri ötən gün "Toçka-U"dan Belqorod vilayətindəki Rovenkiyə hücum etmək üçün istifadə edib, bir az əvvəl isə bu raketlə Avdeyevski sektorunda Krasnoqorovka ətrafına hücum ediblər. Sübut kimi bu həmin silahların fraqmentləri nümayiş etdirilib.

"Rybar"ın müəllifləri belə bir fərziyyə irəli sürürlər ki, Ukrayna Silahlı Qüvvələri Çexiya, Polşa və Yəmənin arsenallarında qalan köhnə raketlər, habelə öz anbarlarında əvvəllər nasaz olan məhsulları təmir etməklə ehtiyatları bir qədər artıra bilib. Rəsmi məlumatlara görə, SSRİ-nin dağılmasından sonra Ukrayna Silahlı Qüvvələrinin arsenalında "Toçka-U" operativ-taktiki raket kompleksi üçün ən azı 500 müxtəlif modifikasiyalı raket qalıb. 1960-1970-ci illərdə hazırlanmış bu raket sistemi son vaxtlara qədər Rusiya Silahlı Qüvvələrinin bütün raket briqadalarının bir hissəsi olub, Rusiya Silahlı Qüvvələri tərəfindən Şimali Qafqazda döyüş əməliyyatlarında, eləcə də Gürcüstanın Cənubi Osetiyaya təcavüzü zamanı istifadə edilib. Bu operativ-taktiki kompleksinin ixrac versiyalarından Suriya və Yəmən müharibəsində istifadə olunub.

Qeyri-rəsmi məlumatlara görə, Ermənistan Silahlı Qüvvələri ondan az miqdarda, təxminən 3 ədəd Qarabağdakı döyüşlərdə istifadə edib. Son vaxtlara qədər "Toçka-U" raket sistemi Ukraynanın raket bölmələri tərəfindən Rusiya Silahlı Qüvvələrinə qarşı fəal şəkildə istifadə olunurdu. Amma Ukrayna Silahlı Qüvvələrinin bu operativ-taktiki raket kompleksi üçün sursatları tükənib. Amma deyəsən, o, Ermənistan Silahlı Qüvvələrinin tərkibində qalıb. Belə bir sual yaranır, Ermənistan rəsmi məlumatlara əsasən, Rusiya Federasiyasının KTMT-də müttəfiqidir, Rusiyaya qarşı hərbi əməliyyatlar aparan Ukraynaya niyə kömək etsin?

"Rybar" hesab edir ki, bu təəccüblü deyil. Onun müəllifləri əmindirlər ki, İrəvan ölkənin KTMT-dən çıxması üçün sənədlər hazırlamağa başlayıb və indi oradakı hakimiyyət "hamını bezdirməyə çalışır". Rybarın, eləcə də digər KİV-in məlumatına görə, Ermənistan hakimiyyəti tərəfindən raketləri olan bir neçə "Toçka-U" buraxılış qurğusunun Ukrayna Silahlı Qüvvələrinə təhvil veriləcəyi vəd edilib. Ola bilsin ki, bu barədə Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan və Ukrayna prezidentinin ofisinin rəhbəri Andrey Ermak arasında oktyabrın sonunda Maltada keçirilən görüşdə "sülh üçün Ukrayna formulu"nun müzakirəsi zamanı razılıq əldə olunduğu iddia edilir.

Mümkündür ki, bu, Ermənistanın baş naziri Nikol Paşinyanla ABŞ nümayəndələri arasında oxşar məsələlərin müzakirəsi çərçivəsində daha əvvəl baş verib. Teleqram kanalının məlumatında Ağ Evdə Sovet istehsalı olan Osa-AK zenit-raket komplekslərinin Ermənistan Silahlı Qüvvələrindən Ukrayna Silahlı Qüvvələrinə təhvil verilməsi məsələsini fəal şəkildə irəli sürdüklərinə diqqət çəkilib. Rusiya rəhbərliyində Ermənistana inamsızlıq getdikcə artır.

Burada hərbi-diplomatik problemlər hərbi-texniki və geosiyasi problemlərlə sıx bağlıdır. Ukraynanın "sülh formulu", məlum olduğu kimi, digər məsələlərlə yanaşı, "Rusiyanın Ukraynaya təcavüzü ilə bağlı xüsusi tribunalın yaradılması və ona dəymiş bütün itkilərin ödənilməsi üçün beynəlxalq mexanizmin yaradılmasını, Rusiya aktivləri hesabına kompensasiya verilməsini nəzərdə tutur". Artıq bir müddətdir ki, Ermənistan postsovet dövründə ona edilən təmənnasız ianələrdən əlavə, Rusiya Federasiyasından ona çatdırılmadığı iddia edilən hərbi yardıma görə Rusiyanın ona təxminən 400 milyon dollar borcu olduğunu düşünür. Bu arada "Rıbar" iddia edir ki, postsovet dövründə Rusiya Ermənistan Silahlı Qüvvələrini "Toçki-U" ilə gücləndirməkdə davam edib. İndi isə "erməni" operativ-taktiki raket komplekslərinin daha 200-ə yaxın hissəsinin Ukrayna Silahlı Qüvvələrinə verilə bilməsi təhlükəsi var. Ekspertlərin və medianın "erməni raketləri" adlandırılan Toçka-U-ların Ukrayna Silahlı Qüvvələrinə verilə biləcəyi ilə bağlı narahatlığı başadüşüləndir. Onların Qarabağ cəbhəsində zəif istifadə olunması Ermənistanda onları idarə edəcək hərbi mütəxəssislərin qalmaması ilə bağlıdır. Amma bu, heç də o demək deyil ki, ukraynalı və bəlkə də Qərb mütəxəssisləri onlardan Rusiya Federasiyasına qarşı istifadə etmək üçün onlardan nəticə çıxara bilməyəcəklər. Bunu 1990-cı illərin sonlarında Cənubi Qafqazda Rusiya Qüvvələr Qrupunun komandirinin müavini olan və hazırda ehtiyatda olan general-leytenant Yuri Netkaçev deyib. O, hesab edir ki, İrəvanda "Toçki-U"nun Ukraynaya "ixrac" edilməsi barədə qərar qəbul olunarsa, bu, Gürcüstan ərazisindən keçən iki marşrut üzrə baş verə bilər: ya yük maşınlarında kamuflyaj edilmiş ağır qoşqularda, yaxud dəmir yolu vasitəsilə Potiyə çatdırmaq.

Ekspertlərin fikrincə, Qara dəniz vasitəsilə Ukraynaya silahların çatdırılması davam edir. "Reuters-in məlumatına görə, 2023-cü ilin avqustunda yaradıldığı gündən indiyədək 151 gəmi Ukraynanın Qara dəniz gəmi dəhlizindən Rumıniya və Türkiyə sahillərindən keçməklə Ukraynanın ehtiyacları üçün yüklərin ixracı və gətirilməsi üçün istifadə edib. Burada, görünür, erməni faktorundan da fəal istifadə olunacaq. Media Fransadan bu marşrutlar vasitəsilə Ermənistana hava hücumundan müdafiə radarlarının, "Mistral" zenit sistemlərinin və termal görüntülərin tezliklə çatdırılması barədə yazır. Bunun müqabilində İrəvan guya Sovet-Rusiya silahlarından azad edilməli və onu Ukraynaya "inkoqnito" ilə tədarük etməlidir. Bu, İrəvanla Fransa, ABŞ və NATO arasında münasibətlərin indi tərtib edilmiş düsturudur. Belə yerdə "keçəl dərman bilsə öz başına sürtər" el məsəli yada düşür. Ermənistan özünə dərman tapa bilmir, amma Ukraynanın dərdinə dəva axtarır. Görünür, silahları tükənən Ukrayna Qərbin tədarükünün ləngidiyini anlayır və arsenalını köhnə silahlarla doldurmaqla vəziyyətdən çıxmağa çalışır. Yoxsa, Kiyevin İrəvana nə ehtiyacı ola bilərdi ki?

**V.VƏLİYEV**



MƏTANƏT

# TƏRƏZİ: bir tərəfində ədliyyə, o birində biz...

Ədliyyənin, məhkəmənin, hüquq və ədalətin rəmzi olan tərəzinin bəli, bir tərəfində ədliyyə, o birində biz və bizim hüquqlarımız dayanır. Hər dəfə rastlaşanda marağımıza səbəb olan bu haqq tərəzisi ədliyyə işçilərinin peşə bayramı günündə də öz rəmzi mənası ilə diqqəti yenidən çəkir. Bu tərəzinin hər iki tərəfi həmişə eyni səviyyədə dayananda hüquqi dövlətdən söhbət gedə bilər. Əgər bu tərəzinin bir tərəfi ədliyyə, bir tərəfi vətəndaşdırsa, deməli, onun taraz dayanması cəmiyyətdə insanların bütün hüquqlarına hörmətlə yanaşılmasını, eyni zamanda vətəndaşın hüquqlarından düzgün istifadəsini, ümumilikdə vətəndaş cəmiyyətinin yaradılmasını və inkişafını göstərir.

Biz dünyaya gələndən vəfat edənədək ədliyyə orqanları ilə təmasda oluruq. Həyata ilk vəsiqəmizi-doğum haqqında şəhadətnaməni onlar bizə təqdim edir, adlarımızı ilk olaraq onlar həmin sənədə yazırlar. Bəzən ad qoymaqda səhv yolda olan valideynlərə uşaqlarına doğru ad qoymaqla bağlı məsləhətlər verir, siyahı tərtib edib Azərbaycana məxsus adlardan istifadəni məsləhət görürlər.

Nikahımız da bu orqanlarda reallaşır. Onlar bizim bu önəmli günümüz üçün otaqlar da bəzəyir, nikahımızın yaddaqalan olması üçün nə lazımsa, edirlər. İstənilən vaxt istənilən bir sənədlə bağlı müraciətlərimizin vaxtında və lazımi şəkildə həllinə çalışırlar.

Ailələrimiz dağılmaq təhlükəsi qarşısında olan andan ədliyyə orqanları hər zaman bizim yanımızda olur. Məsləhətləri, tövsiyələri ilə ailələrin qorunmasına, ailə institutuna xələl gəlməməsinə çalışırlar. Boşanma hallarında məhkəmələr bizə aylarla vaxt verir ki, bəlkə bu zaman kəsiyində barışarıq, böyüklərin məsləhətlərinə qulaq asın ailəmizi dağıtmarıq. Onlar hər zaman uşaqlarımızın tərəfindədir. Onların hüquqlarını qoruyan ilk orqandır. Ailələrdə yaranan problemlər zamanı aliment məsələsi ilə uşaqların hüquqlarını müdafiə edirlər. Onların həyatı, rifah halı üçün bunu valideynlər qarşısında bir vəzifə borcu olaraq qoyurlar. Beləliklə, doğumdan ölənədək biz hər zaman ədliyyə orqanları ilə əlaqədəyik və onlar tərəzinin bir tərəfində dayanmaqla o biri tərəfini bizim xeyrimizə tarazlamağa çalışırlar.

***

Bu tarazlığın qorunması üçün dövlət tərəfindən hər zaman islahatlar həyata keçirilir, dövlət idarəçiliyi mexanizminin təkmilləşdirilməsi diqqətdə saxlanılır. Azərbaycan Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanı bu istiqamətində səmərəliliyi daha da artırıb. Bütün bunlar isə ümumilikdə insanların rifahına, ədalət prinsipinə əsaslanan vətəndaş cəmiyyətinin yaranmasına xidmət edir.

Müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiqi ədliyyə və məhkəmə sahəsində işin çeviklik və dəqiqlik prinsipi əsasında qurulmasına şərait yaradıb. "Elektron hökumət", "Elektron notariat" "Mobil notariat", "Elektron icra", "Elektron məhkəmə" kimi yeni sistemlər ədliyyə orqanlarının fəaliyyətində yeniliyin müşahidə olunması ilə nəticələnib. "Elektron hökumət" sisteminin fəal iştirakçısı olan ədliyyə orqanları tərəfindən vətəndaşlara 35-dək müxtəlif elektron xidmətlər göstərilir. Bu xidmətlərdən isə vətəndaşlar yetərincə istifadə edir.

"Elektron notariat" innovasiyaların tətbiqi üçün geniş imkanlar açıb. Həmçinin rəqəmsallaşdırmanın yeni mərhələsi olaraq "Mobil notariat" tətbiqi yaradılıb ki, vətəndaşlar bununla notariat ofisinə getmədən, videoəlaqə vasitəsilə, o cümlədən xaricdən müxtəlif notariat hərəkətlərini rəsmiləşdirmək imkanına malikdirlər.

Bələdiyyə fəaliyyətinin səmərəliliyinin artırılması, vətəndaşların bələdiyyələrə əlçatanlığının təmin olunması, vergi, sığorta, aliment və digər borclar üzrə məhkəmə qərarlarının çevik icrası, azadlıqdan məhrumetməyə alternativ cəzaların səmərəli icrası məqsədilə elektron nəzarət vasitələrinin (elektron qolbaqlar) tətbiqi, məhkəməyə müraciət etmək hüququnun yaranması anından məhkəmə qərarının icrasının tamamlanmasına qədər bütün proseslər yeni texnologiyalar vasitəsilə həyata keçirilir ki, bu da nəticə etibarilə vətəndaşla işin səmərəliliyini artırır.

Ədliyyə orqanları ilə "ASAN xidmət" və DOST mərkəzlərinin birgə fəaliyyəti vətəndaşların dövlət orqanlarına əlçatanlığının artırılması, bu sahədə şəffaflığın təmin edilməsi və eyni zamanda, xidmətlərdən vahid məkandan yararlanması üçün geniş imkanlar yaradıb. Dövlətimizin şəhid ailələrinə yüksək diqqət və qayğı çağırışlarına qoşulan notariuslar var ki, yüksək vətəndaş mövqeyi və sosial məsuliyyət nümayiş etdirərək şəhid ailələrinə öz hesablarına xidmət göstərirlər.

Yaranmasından 105 il ötən ədliyyə orqanları Ümummilli Liderimiz Heydər Əliyevin daim diqqətdə saxladığı sahələrdən biri idi. Onun 2000-ci il 11 noyabr tarixli sərəncamı ilə 22 noyabrın Ədliyyə İşçilərinin Peşə Bayramı Günü kimi təsis edilməsi də bunun bariz nümunəsidir. Artıq 23 ildir ki, 22 noyabr hər il ədliyyə və məhkəmədə sistemində çalışanlar tərəfindən böyük ruh yüksəkliyi ilə qeyd olunur.

Biz də ədliyyə işçilərinə, "bayramınız mübarək",- deyirik və ədalət tərəzisinin daim taraz dayanması yolunda uğurlar arzulayırıq.

# Mənzillərin çıxarışla təmin olunması üçün hansı addımlar atılır?

**Azərbaycanda çıxarış verilən mənzillərin sayı 38 faiz artıb. Bununla belə illərdir mənzillərinə çıxarış əldə edə bilməyən vətəndaşlar var. Ölkə ərazisindəki bütün mənzillərin çıxarışla təmin olunması üçün hansı zəruri addımlar atılmalıdır? SİA mövzu ilə bağlı sorğu keçirib.**

Əmlak məsələləri üzrə ekspert Ramil Qasımzadə: "İlk növbədə onu qeyd etmək lazımdır ki, mənzillərə çıxarış verilməsinin artması mülkiyyət hüquqları ilə əlaqədardır. Mənzil qeydiyyatlarının çox hissəsini təkrar qeydiyyat tutur: "Təkrar qeydiyyat odur ki, yeni mənzil tikilmir, sadəcə sahibi dəyişir. Burada yeni bir çıxarışın qeydiyyatından söhbət getmir. Diqqət çəkən məqam məhz son on ayın göstəricilərində olan 63 516-dır ki, bu mühüm göstəricidir. Qeyd edim ki, bu göstərici keçən illərlə müqayisədə də artıb. Ümumiyyətlə hökumət tərəfindən də, Əmlak Məsələləri üzrə Dövlət Xidməti tərəfindən də bu məsələyə çox həssas yanaşılır. Bacardıqca vətəndaşların mülkiyyət hüquqlarının tanınması üçün iş aparılır.







R.Qasımzadə bildirib ki, ildən-ilə yeni mənzillərin qeydiyyatı aparılır: "Burada əsas məqam ondan ibarətdir ki, yeni tikilən çoxmənzilli binalarda ölkə başçısı tərəfindən verilən tapşırıqdan sonra çıxarışların verilməsi aktiv şəkildə aparılır. Çoxmənzilli binaların hissəsində bu problem var. Hətta Əmlak Məsələləri üzrə Dövlət Xidməti tərəfindən yerlərdə kampaniyalar təşkil olunur, əhaliyə çıxarışlar təqdim olunur. Bu proses aktiv şəkildə aparılır. Çıxarışla təmin olunmayan mənzillərlə bağlı problem ilk növbədə ondan ibarətdir ki, bunlar özbaşına tikililərdir. Ölkə rəhbərinin müvafiq qərarından sonra bilirik ki, 2013-cü ilə qədər torpaq sənədi varsa ərazidə tikilən mənzilin də qeydiyyatı həyata keçirilir. Mühafizə zonasına düşən və insanların sağlamlığına ciddi təhlükə yaradan fərdi yaşayış evlərinin qeydiyyatından sonra müəyyən fəsadlar yarandıqda bunun məsuliyyəti var. Bu baxımdan bu da bir probleme səbəb ola bilər. Məlum olduğu kimi yüksək gərginlikli xətlərin, qaz xətlərinin, su kəmərlərinin üzərində yaxud neftlə çirklənən ərazilərdə yaşamaq belə ziyandır. Bəzi evlər var ki, onların qeydiyyatını aparmaq olar, lakin o evlərin torpağı ilə bağlı problemlər mövcuddur. Elə torpaq sahələri var ki, kənd təsərrüfatı təyinatlı torpaq sahələridir. Torpaq sırf kənd təsərrüfatı üçün nəzərdə tutulduğundan təyinatın dəyişməsi Azərbaycan Respublikasının Nazirlər Kabinetinin səlahiyyəti çərçivəsindədir. Bunula bağlı bələdiyyələr və icra hakimiyyətləri yaşayış sahələrinin artırılması üçün hökumətə müraciət etməlidirlər. Bu kimi amillər səbəbindən bəzi fərdi yaşayış evləri çıxarışla təmin olunmur. Biz görürük ki, ildən-ilə ilkin qeydiyyatın göstəricisi çoxalır. Bu iqtisadiyyata mühüm töhfələr verir. İlk növbədə insanların mülkiyyət hüququ tanınır, sığorta bazarını genişləndirir, banklarda əməliyyatları artırır. Bu özü iqtisadiyyata və dövlət büdcəsinə əlavə gəlirlərin gəlməsi deməkdir".

Mövzu ilə bağlı barədə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Aydın Hüseynov bildirib ki, Sovet dövründə və müstəqilliyin ilk illərində müxtəlif dövlət orqanları tərəfindən tikilən evlərlə əlaqədar vətəndaşlara müvafiq sənədlər verib. Ancaq fərdi yaşayış evlərinin inşası və həyətyanı sahələrin ayrılması üçün nəzərdə tutulan bu sənədlərin heç bir hüquqi əsası olmayıb. Buna görə də o evlərin sənədləşdirilmə prosesi illərlə uzanıb: "Lakin ölkə Prezidentinin problemə müdaxiləsi, eyni zamanda, imzaladığı 13 yanvar 2015-ci il tarixli fərmana əsasən, 2015-2022-ci illər ərzində 150 mindən ev sənədləşdirilib, əksər yaşayış binalarındakı mənzillərin mülkiyyət hüquqları dövlət qeydiyyatına alınıb. Bu proses qanunamüvafiq şəkildə davam etdirilir".

Millət vəkilinin sözlərinə görə, son illərdə Bakı şəhərində və bölgələrdə istismarına icazə verilən yeni çoxmənzilli binalardakı mənzillər mülkiyyət hüququnu təsdiq edən sənədlərlə təmin edilir: "Bu proses son 3-4 ildə daha da sürətlənib və "Əmlakını qeydiyyata al və mülkiyyətinə sahib ol" kampaniyası çərçivəsində minlərlə mənzil çıxarışla təmin olunub. Prezidentin "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" 2019-cu il 19 fevral tarixli Fərmanı ilə müəyyənləşdirilmiş vəzifələrin icrası çərçivəsində həyata keçirilən səyyar qeydiyyat prosesi çərçivəsində müxtəlif mənzil-tikinti kooperativlərinin (MTK) inşa etdiyi yüzlərlə binada 100 mindən çox mənzilə elektron çıxarış verilib. Ümumiyyətlə, istismarına icazə verilmiş bütün yaşayış binalarındakı mənzillərin sənədləşdirilməsi və mülkiyyət hüququ ilə təmin edilməsi öz həllini tapır. İstismarına icazə verilmiş, lakin mənzilləri mülkiyyət hüququnu təsdiq edən sənədləri təmin etməyən mənzillərin də çıxarışla təmin olunması üçün müvafiq hüquqi mexanizmlər tətbiq olunur".

A.Hüseynov qeyd edib ki, hazırda ölkədə bütün mənzillərin çıxarışla təmin olunması üçün zəruri addımlar atılır: "Hazırda Bakı və Abşeron ərazisində 100 minlərlə çıxarışı olmayan fərdi evlər mövcuddur və çox sayda torpaq sahələri var ki, bələdiyyələrin verdiyi sərəncamlar əsasında əldə edilib ki, onların özəlləşmələrində ciddi problemlər var. Bunun da bələdiyyələrin verdiyi sənədlərin müvafiq icra hakimiyyəti orqanlarının əmlak və torpaqla bağlı tələb və normativlərinə uyğun olmaması, bir sıra qüsurlarla bağlıdır. Həmin evlər Şəhərsalma və Tikinti Məcəlləsində nəzərdə tutulan etibarlılıq və təhlükəsizlik tələblərinə uyğun olmadığından, eləcə də sənədləşdirilə bilmir. Ancaq bu məsələnin hüquqi çərçivədə həll olunması üçün komissiya işləyir və növbəti mərhələdə çıxarışların verilməsinin sadələşdirilməsi sayəsində bu evlərin də mülkiyyət hüquqları təmin olunacaq".

***Rəşid Qarayev***





# Qazanılan uğurlar Heydər Əliyev siyasətinin təntənəsidir

## Siyəzən rayonunda "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib

"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində YAP Siyəzən rayon təşkilatı noyabrın 22-də Siyəzən rayon Mədəniyyət Mərkəzində tədbir keçirib. Əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyulub, dahi şəxsiyyətin xatirəsi ehtiramla yad olunub.

Sonra rayon Şəhidlər xiyabanı ziyarət edilib, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirələri ehtiramla anılıb. Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub. Tədbiri giriş sözü ilə açan YAP Siyəzən rayon təşkilatının sədri Samir Baxşiyev Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən bəhs edib. O vurğulayıb ki, Ulu Öndər Heydər Əliyevin fəaliyyəti dünya siyasət xəzinəsinə daxil olmuş, onun adı Azərbaycan xalqının rəmzinə, keçdiyi ömür yolu doğma torpağa məhəbbət və sədaqət meyarına çevrilmişdir. Ölkəmiz dünyada layiq olduğu mərtəbəyə Ulu Öndərin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, dəmir iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində yüksələ bilmişdir. Bu gün ölkəmiz Ulu Öndər Heydər Əliyev siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında yeni nailiyyətlər qazanır.

Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Novruz Novruzov qeyd edib ki, böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi, istedadı hər bir azərbaycanlı üçün məktəbdir. Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik ideyaları ilə silahlanmış müstəqil Azərbaycan Respublikası hazırda Prezident İlham Əliyevin rəhbərliyi altında daha xoşbəxt sabahlara doğru uğurla addımlamaqdadır.



YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov bildirib ki, Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü Ulu Öndər Heydər Əliyevin möhtəşəm siyasi və dövlətçilik fəaliyyəti ilə sıx bağlı olmuşdur. Məhz intibah və milli şüurun oyanışı Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəlişi ilə başlamış, müstəqilliyimiz məhz onun sayəsində əbədi və dönməz xarakter almışdır.

YAP İdarə Heyətinin üzvü Elnarə Akimova vurğulayıb ki, Azərbaycan xalqının Ümummilli Lideri müstəqil Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyev Azərbaycan tarixinin yetişdirdiyi ən böyük şəxsiyyətlərdən biridir. Azərbaycanın son 40 ildən artıq bir dövrünü əhatə edən tarixi taleyi, bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəlişi məhz Ulu Öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə fəxri fərman, YAP sıralarına yeni qoşulanlara üzvlük vəsiqələri təqdim edilib. Tədbirə Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə yekun vurulub.

**Noyabrın 22-də ”Heydər Əliyev İli” çərçivəsində Yeni Azərbaycan Partiyasının (YAP) Veteranlar Şurasının və Yasamal rayon təşkilatının birgə təşkilatçılığı ilə ”Xalqın qəlbində əbədiyyət qazanmış dahi şəxsiyyət” adlı tədbir keçirilib.**





# “Xalqın qəlbində əbədiyyət qazanmış dahi şəxsiyyət”

Tədbirdə YAP Veteranlar Şurasının üzvləri və Bakı şəhəri üzrə rayon təşkilatlarının fəalları iştirak ediblər.

Tədbirdən öncə Yasamal rayonu ərazisində Şəhidlər Xatirə Kompleksi ziyarət edilib. YAP Yasamal rayon təşkilatının inzibati binasında keçirilən tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzülüb.

Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra ”Nə qədər ki Azərbaycan var, Heydər Əliyev də var olacaq!” adlı sənədli film nümayiş olunub.

Çıxış edən YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev Ulu Öndər Heydər Əliyevin xalqımız qarşısında tarixi xidmətlərindən bəhs edib. Qeyd edib ki, Azərbaycanın inkişaf strategiyasının müəllifi Ümummilli Lider Heydər Əliyevdir: ”Ulu Öndər Heydər Əliyevin siyasi varisi Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində Azərbaycan qüdrətli və qalib ölkəyə çevrilib.”

2023-cü ilin ölkəmizdə ”Heydər Əliyev İli” elan olunması ilə əlaqədar silsilə tədbirlərin keçirildiyini diqqətə çatdıran YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə bildirib ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövr milli dövlətçilik tarixində mühüm yer tutur: ”Heydər Əliyevin hakimiyyətə birinci gəlişi xalqın həyatında dönüş nöqtəsi, çiçəklənmə, milli oyanış dövrü oldu. 1993-cü ildə Ulu Öndər hakimiyyətə qayıdışı ilə xilaskarlıq missiyasını yerinə yetirdi, ölkəmiz məhv olmaq təhlükəsindən qurtardı. Ümummilli Lider Heydər Əliyevin müasir və müstəqil Azərbaycana rəhbərliyinin əsas nəticəsi ondan ibarətdir ki, dağılmaq ərəfəsində olan ölkəmiz dinamik inkişaf edən bir ölkəyə çevrilib. Bu heç də asan başa gəlməyib. Azərbaycanı inkişaf yoluna yönəltmək üçün böyük zəhmət sərf olunub. Odur ki, biz Heydər Əliyevin qurucusu olduğu bugünkü Azərbaycanı daim qorumalıyıq”.

YAP Veteranlar Şurasının üzvü, ”91-lər”dən Tahir Məmmədov çıxışında söyləyib ki, Ulu Öndər Heydər Əliyev bütün həyatını Azərbaycanın inkişafına həsr edib. T.Məmmədov Ulu Öndərin milli-mənəvi dəyərlərimizə verdiyi qiymətdən, yaradıcı insanlara qayğısından danışıb və bu istiqamətdə xatirələrini bölüşüb. Tahir Məmmədov Ulu Öndərin müstəsna xidmətlərinin hələ uzun illər tədqiqatçıların diqqət mərkəzində olacağını qeyd edərək vurğulayıb ki, müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir.

YAP Veteranlar Şurasının sədr müavini, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova Ulu Öndər Heydər Əliyevin öz həyat və fəaliyyətini Azərbaycanın inkişafına həsr etdiyini diqqətə çatdırıb. Bildirib ki, Heydər Əliyevin zəngin irsi bugünkü uğurlarımızı şərtləndirir. Belə tədbirlərin keçirilməsi də dahi şəxsiyyət Heydər Əliyevin əbədiyaşar ideyalarının təbliğində vacib rol oynayır. Çünki Azərbaycanın müasir tarixi, ölkəmizin inkişafı bilavasitə Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Dövlət müstəqilliyimiz məhz Ümummilli Liderin qətiyyəti, zəngin təcrübəsi, güclü iradəsi, xalqına bağlılığı sayəsində əbədi xarakter alıb.

YAP Veteranlar Şurasının üzvü, ”91-lər”dən Şahlar Əsgərov Azərbaycanın inkişaf yolundan, əldə olunan nəaliyyət və inkişafdan bəhs edib. Bildirib ki, ölkəmizin inkişafının təməlində əsası Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilən çoxşaxəli siyasətin Prezident İlham Əliyev tərəfindən son 20 ildə məzmun və keyfiyyətcə yeni mərhələyə yüksəldilməsi dayanır. Ərazi bütövlüyü və suverenliyini təmin edən Azərbaycan bu gün heç kimdən asılı deyil, özü öz taleyinin sahibi olmaqla yanaşı dünyada söz sahibi olan dövlətlərdən birinə çevrilib.

Tədbirdə, həmçinin Bakı Dövlət Universitetinin professoru, fəlsəfə elmləri doktoru, Milli Qəhrəman Məzahir Rüstəmovun atası İzzət Rüstəmov, Türk Ağsaqqaları Birliyinin sədr müavini Eyvaz Hümbətov və partiyanın veteran üzvü Tahir Quliyev çıxış edərək Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı xidmətlərindən bəhs ediblər. Tədbirə Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə yekun vurulub.

# Ulu Öndərin şah əsəri olan müstəqil Azərbaycan yeni zirvələr qət edir

*Kürdəmir rayonunda "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib*

**“Heydər Əliyev İli” ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində YAP Kürdəmir rayon təşkilatı noyabr ayının 22-də rayon Heydər Əliyev Mərkəzində tədbir keçirib. Əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyulub, dahi şəxsiyyətin xatirəsi ehtiramla yad olunub.**







Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Ümummilli Liderin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan YAP Kürdəmir rayon təşkilatının sədri Ayaz Cəbrayılov bildirib ki, müstəqil Azərbaycan Ulu Öndər Heydər Əliyevin əbədiyaşar ideyaları və zəngin siyasi irsi əsasında tarixi nailiyyətlərə imza atır. Ümummilli Lider Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Bu gün Azərbaycan Heydər Əliyevin müəyyən etdiyi yolla öz gələcəyinə doğru inamla addımlayır, inkişaf göstəriciləri ilə dünyaya səs salıb. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində ölkəmiz böyük inkişafa yolu ilə irəliləyir.

Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Elxan İbrahimov söyləyib ki, Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə ölkənin inkişaf strategiyasını müəyyən edib və onun həyata keçirilməsi üçün mühüm addımlar atıb. Ulu Öndərin rəhbərliyi ilə görülən işlər yeni Azərbaycanın parlaq gələcəyini təmin edib. Ümummilli Liderimizin layiqli davamçısı olan cənab İlham Əliyevin 2003-cü ildə Prezident seçilməsindən sonra keyfiyyətcə yeni mərhələ başlanıb, yeni tarixi nailiyyətlərə imza atılıb, xalq-iqtidar birliyi daha da möhkəmlənib.

YAP İdarə Heyətinin üzvü, professor Amin İsmayılov Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın dövlətçilik tarixindəki müstəsna yeri və rolundan bəhs edib. Qeyd edib ki, Ulu Öndər xalqımızın xilaskarı, müasir müstəqil Azərbaycan dövlətinin banisidir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə son 20 ildə ölkəmizin davamlı inkişaf etdiyi, Ulu Öndərin şah əsəri olan müstəqil Azərbaycanın yeni zirvələr qət etdiyi xüsusi vurğulanıb.

YAP Veteranlar Şurasının üzvü Nazim İsmayılov qeyd edib ki, Ulu Öndər Heydər Əliyev bütün həyatını Azərbaycanın inkişafına həsr edib. Heydər Əliyevin zəngin irsi bugünkü uğurlarımızı şərtləndirir. Nazim İsmayılov Ümummilli Liderin milli-mənəvi dəyərlərimizə verdiyi önəmdən danışıb və bu istiqamətdə görülən işlərə diqqət çəkib. Bu gün Heydər Əliyev ideyaları əsasında dinamik inkişaf edən, qüdrəti və beynəlxalq nüfuzu getdikcə artan Azərbaycan yeni zirvələr fəth edir.

Şəhid anası Müşgünaz Həziyeva, partiya fəalı Şəfəq Ağayeva çıxışlarında qeyd ediblər ki, Ulu Öndər Heydər Əliyev xalqımızın yaddaşında qurucu və xilaskar obrazını daim yaşadıb, qəlblərdə özünə əbədi məhəbbət qazanıb. İnkişaf yolunda inamla irəliləyən müasir Azərbaycan Ulu Öndər Heydər Əliyevin həyat amalının təntənəsidir.

Daha sonra rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə fəxri fərman, YAP sıralarına yeni qoşulanlara üzvlük vəsiqələri təqdim edilib. Tədbirə Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə yekun vurulub.

# Gənclərin vətənpərvərlik tərbiyəsi



**Müasir qloballaşma dövründə gənclərin milli vətənpərvərlik ruhunda tərbiyə edilməsi dövlət, onun müvafiq orqanları, təşkilatlar və hər bir Azərbaycan vətəndaşı qarşısında böyük məsuliyyət yaradır. Bəzən vətənpərvərliyi millətçilik hisslərinə yaxın bir anlayış kimi qəbul edirlər. Əslində isə, vətənpərvərlik heç vaxt millətçiliyi təbliğ edən bir anlayış olmayıb.**

XIX əsrdə vətənpərvərlik anlayışı millətçiliklə eyni mənada işlənmişdir. XVIII əsr vətənpərvərliyi Avropada dövlətlə yanaşı kilsəyə bağlılığı bildirən amil kimi qəbul edilmişdi. Kilsə adamları əsasən vətənpərvərliyi dini mənsubiyyətlə bağlayırdılar. Bununla isə onlar insanların dövlətə olan bağlılığını qoparmağa çalışırdılar.Azərbaycanda XX əsrin sonlarında -SSRİ-nin parçalanmasından sonra Azərbaycan dövlətinin müasirləşməsi ilə vətənpərvərlik müxtəlif cərəyanların içərisində özünü göstərdi. Orta əsrlərdə Azərbaycan ziyalılarının yaradıcılığında da vətənpərvərlik hislərinin tərənnümünü tapmaq mümkündür. Beləliklə, bu anlayış millətçi zəmində qarşıdurma yaradan amil kimi yox, xalqın, dövlətin milli maraqlarının müdafiəsi yönündə birləşməsini təmin edən bir sistem kimi özünü göstərir. Vətənpərvərlik - vətəni sevmək və vətən üçün hər cür fədakarlığı etmək hissidir. Tarixin bütün dönəmində Azərbaycan ərazisində ilkin dövlətlərin yaranmasından bu günə qədər bu ənənə yaşayır.

Vətənpərvərliyin tarixi kökündə min illər boyu yaşamış, möhkəmlənmiş dövlətçilik durur. Azərbaycan xalqının yaxın və uzaq keçmişi, elm, mədəniyyət, dövlətçilik, siyasət sahəsində əldə etdiyi nailiyyətləri, qəhrəmanlıq tarixi, dövlətin müasir inkişaf göstəriciləri gənclərdə vətənpərvərliyi formalaşdıran əsas amillərdir. Hər bir dövlətin varlığı və gələcəyi, həm də gənclərin tərbiyəsindən asılıdır. Gənclərin ideoloji baxımdan hazırlığı, düşünülmüş ardıcıl gənclər siyasətinin nəticəsidir.

Ümummilli lider Heydər Əliyev tərəfindən 2002- ci il mayın 6-da imzalanmış "Gənclər siyasəti haqqında" qanunda deyilir ki, bu siyasət gənclərin vətənpərvərlik, azərbaycançılıq, dövlətçilik, dünyəvilik prinsipləri əsasında, Azərbaycan xalqının tarixinə, mədəni irsinə, adət-ənənələrinə, dövlət dilinə və rəmzlərinə, mənəvi ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması ilə birbaşa bağlıdır. Bu qanundan göründüyü kimi, milli vətənpərvərliyin məzmunu təkcə öz vətəninə məhəbbət hissi ilə məhdudlaşmayıb, milli ruhda tərbiyəni təşkil edir. Azərbaycan xalqı daim gənc nəslin vətənə sədaqət, xalqa hörmət, soykökünə, öz ata-babalarının adət-ənənələrinə bağlılıq ruhunda tərbiyə olunmasına xüsusi diqqət göstərib və göstərir. Gənclərlə aparılan vətənpərvərlik tərbiyəsi işinin mühüm istiqamətlərdən biri də ayrı-ayrı şəxsiyyətlərin, milli qəhrəmanların şəxsi nümunələrindən istifadədir. Böyük pedaqoqlar tərbiyədə şəxsi nümunənin rolunu hər zaman yüksək qiymətləndirmişlər. Tariximizdə, eləcə də müasir dövrümüzdə həyatı gənclərə vətənpərvərlik nümunəsi olan şəxsiyyətlər çoxdur. Bu baxımdan Ulu Öndər Heydər Əliyevin zəngin, mənalı, xalqına və vətəninə həsr olunmuş həyat yolu gənclərimiz üçün bir örnəkdir. Ulu Öndərin zəngin siyasi irsinin öyrənilməsi istiqamətində son dövrlərdə Elm və Təhsil Nazirliyi tərəfindən atılan addımlar çox dəyərlidir və gənclərimizin vətənpərvərlik tərbiyəsində mühüm rol oynayır.

"Bu gün hər bir vətənpərvər azərbaycanlı haqlı olaraq fəxr edir ki, o, müstəqil Azərbaycan Respublikasının vətəndaşıdır. Ölkəmizin hərtərəfli inkişafında gənclərimizin çox böyük rolu vardır. Gənclər müxtəlif sahələrdə çox uğurla fəaliyyət göstərirlər, ölkəmizin ümumi inkişafına böyük töhfə verirlər. Bu gün Azərbaycan gəncləri cəmiyyətimizin fəal hissəsidir. Biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik". Bu sözləri Azərbaycan Gəncləri Gününə həsr olunmuş Respublika toplantısında Prezident İlham Əliyev söyləyib. Bu da onun gəncliyə verdiyi dəyərin bariz nümunələrindən biridir.

Dövlət başçısının söylədiyi fikirlər həqiqətən də gənclər adına çox qürurvericidir. Bu gün qürur hissi ilə demək olar ki, müasir











Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, gözəl adət-ənənələrimizi qoruyub yaşadır.Bunlardan əlavə, 2022-ci il Fevralın 2-də Bakıda Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumu keçirildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də bu Forumda iştirak etdi. Gənclər siyasətində milli və dövlətçilik maraqlarının prioritet olması 44 günlük Vətən müharibəsində həlledici rol oynadı. Müharibədə əsas missiyanı, məhz Ali Baş Komandan İlham Əliyevin prezidentliyi dövründə yetişən gənclər yerinə yetirdilər.

Gülüstan sarayında təşkil olunan Gənclər Forumunda gənc sahibkarlar, dövlət proqramlarının iştirakçıları, keçmiş məcburi köçkün, şəhid ailələrinin gənc üzvləri, Vətən müharibəsi iştirakçıları, təhsildə və sosial inklüziv fəaliyyətdə fərqlənənlər iştirak etdilər. Həmçinin, dövlətimizin başçısı Forumda çıxış etdi. Cənab Prezident forumda gənclərin vətənpərvərliyi haqqında bu fikirləri diqqətə çatdırdı: "Çox şadam, fəxr edirəm ki, Vətən uğrunda, torpaq uğrunda qabağa gedənlərin əksəriyyəti gənclər idi. Bu, hər birimiz üçün qürur mənbəyidir. Çünki elə bir gənc nəsil yetişdi ki, hətta Qarabağı görməyən, o acı tarixi görməyən gənclər Qarabağ uğrunda, Vətən uğrunda, milli ləyaqət uğrunda ölümə gedirdilər və şəhid oldular, qazi oldular və müzəffər Ordumuzun şöhrətini yüksəklərə qaldırdılar. Əgər bu siyasət olmasaydı, əgər gənclər vətənpərvərlik ruhunda tərbiyə almasaydılar, bilmək olmazdı, müharibənin nəticələri necə ola bilərdi.

Əlbəttə, müharibədə əldə edilmiş qələbənin bir çox səbəbləri var: həm ölkədaxili səbəblər, həm də bizim xarici müstəvidəki fəaliyyətimiz, əlbəttə ki, güclü iqtisadiyyatımız, ordumuzun müasirləşdirilməsi. Ancaq əsas amil vətənpərvərlikdir. Milli ruh, milli ləyaqət və vətənpərvərlik onları irəliyə aparırdı. Belə xalqla heç kim mübarizə apara bilməz".

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən təsdiq edilmiş və aidiyyatı nazirlik, komitə və təşkilatlarla razılaşdırılmış "Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi" Proqramı təsdiq edilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 17 fevral tarixli 28 saylı sərəncamı ilə təsdiq edilmişdir. Proqramda nəzərdə tutulur ki, müstəqil dövlət quruculuğu yolunda gənclərin üzərinə böyük və məsuliyyətli vəzifələr düşür. Bu vəzifələri isə yalnız öz vətənini sevən, onun tərəqqisinə çalışan və vətənin azadlığı uğurunda canını qurban verməyə hazır olan gənclər yerinə yetirə bilər. Proqramın əsas məqsədi gənclərdə vətənə dərin məhəbbət, vətənin tərəqqisi üçün çalışmaq, onu müdafiə etmək hissləri aşılamaqdır.

Cəmiyyəti inkişaf etdirən, irəli aparan vətəndaşlar məktəblərimizdə tərbiyə alır və formalaşır. Danılmaz faktdır ki, məktəblərimizdə təbliğ edilən vətənpərvərlik ideyaları gənclərdə fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzli- lik kimi ən ülvi hissləri aşılayır. Məktəbdə müəllimin vəzifəsi təkcə bilik verməklə məhdudlaşmır, bu, eləcə də vətənə layiqli şəxsiyyət yetişdirməkdir. Ölkəmizdə vətənpərvərlik tərbiyəsinin aşılanması üçün kifayət qədər imkanlar var. Çünki Azərbaycanı dünyaya tanıdan dövlət xadimlərinin, ziyalılarının nümunələri də gənc nəsl üçün bir tərbiyə məktəbidir. Bu bir həqiqətdir ki, biz şanlı tariximizdə, əfsanəvi qəhrəmanlarımızla həmişə fəxr etmişik. Şah İsmayıl Xətai, Babək, Mehdi Hüseyinzadə, Həzi Aslanov və yüzlərlə belə igid sərkərdələrimizin şəxsi nümunəsi əsas verir deyək ki, Azərbaycan xalqı qəhrəman xalqdır və bu xalq minlərlə qəhrəman,vətənpərvər yetişdirib. İnsanın ən ali hissi olan vətənpərvərlik anadangəlmə olsa da, digər hisslər kimi tərbiyəyə möhtacdır və tərbiyə yolu ilə daha da möhkəmlənir. Yeniyetmə və gənclərimizin bu ruhda tərbiyəsi həmişə təlim-tərbiyə işinin, istər ailədə, istərsə də təhsil ocaqlarında ən mühüm istiqamətlərdən biri olmuş və olmalıdır.

Ulu Öndər Heydər Əliyev vətənpərvərlik hisslərini yüksək qiymətləndirərək demişdir: "Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, vətən torpağına, millətə sədaqət, vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq,inkişaf etdirmək və təbliğ etməkdir".

Gənc nəslin vətənpərvər ruhda tərbiyəsi təhsildə prioritet tələbdir və bu şəkildə də müəyyənləşdirilməlidir. Azərbaycanın 5 min ilə yaxın dövlətçilik tarixində Qarabağ müharibəsi çox əhəmiyyətli və xüsusi yer tutur. 44 günlük Vətən müharibəsi Azərbaycanın dövlətçilik tarixində xüsusi bir hadisədir. 44 gün ərzində Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan ordusu itirdiyimiz torpaqları özümüzə qaytardı. Burada Azərbaycan igidləri yalnız silah və texnika gücü ilə deyil,eyni zamanda, şəxsi şücaətləri ilə yadda qaldı. Qəlbi vətən eşqi ilə yanan mərd oğullarımız şanlı tariximizə öz qanları ilə yeni qələbə yazdılar.

Gənclərimizdə vənpərvərlik hissinin aşılanması dövlətin, dilin, adət-ənənələrin, ümumilikdə, bütöv bir xalqın gələcəyini təmin edən amillərdəndir. Şübhəsiz ki, hər bir cəmiyyətin gələcəyi onun yetişməkdə olan gənc nəslidir. Onu da qeyd etmək istəyirəm ki, vətənpərvərlik tərbiyəsi təkcə tərbiyə və təhsil müəssisələrində aparılmır.

Vətənpərvərlik tərbiyəsində hər bir gəncin doğulub, boya-başa çatdığı ailənin də böyük rolu vardır. Gənclərin bir vətəndaş kimi yetişməsində ailənin, cəmiyyətin, ümumilikdə, mühitin rolu böyükdür. Vətənpərvərlik tərbiyəsinin mənbəyi ailədir. Gənclər bir insan, vətəndaş kimi ilk tərbiyəni ailədən alır. Burada onlar əxlaqi-mənəvi keyfiyyətləri, fiziki möhkəmliyi, əmək vərdişlərini, davranış qaydalarını, bədii-estetik duyumu və s. kimi keyfiyyətləri qazanır. Təcrübə göstərir ki, ailədə vətənpərvərlik tərbiyəsi yalnız özbaşına, körkoranə deyil, planlı, sistemli, məqsədli şəkildə təşkil olunmalıdır. Uşaqlara vətən sevgisi aşılamaq üçün ilk növbədə valideynlər o ruhda olmalıdırlar.

Son dövrlərdə gənclərimizin vətənpərvərlik tərbiyəsinə diqqət daha da artırılmışdır. Təhsil müəssisələrinin qarşısında gənc nəslin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunması üçün müəyyən vəzifələr qoyulmuşdur. Bu məqsədə çatmaq üçün məktəb və ailə uşaqlarda vətənə, xalqa məhəbbət hissi tərbiyə etməklə yanaşı, onlarda vətən qarşısında şərəf və borc hissini də qüvvətləndirilməlidir.

Fəaliyyət göstərdiyim qocaman təhsil müəssisəsində - Azərbaycan Dövlət Pedoqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecində də gəncələrin vətənpərvər ruhda böyüməsi, təhsil alması həmişə diqqət mərkəzində olmuşdur. Gənclərin vətənpərvər ruhda böyüməsi, tərbiyə alması üçün müxtəlif mədəni - kütləvi tədbirlər, maarifləndirmə və təbliğat işləri aparılır. Bu isə yetişməkdə olan gənc nəslin mənəvi, psixoloji hazırlığının təmin edilməsinə kömək edir. Eyni zamanda, onlarda Vətənə, doğma torpağa məhəbbət hissinin yüksəldilməsinə, eləcə də milli-mənəvi dəyərlərimizin qorunub saxlanmasına kömək edir.

***Aidə Musayeva***
***ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin müəllimi***

# Zəfər festivalına Azərbaycan Bəstəkarlar İttifaqının töhfələri

**Hər bir sənət əsərinin yaranmasında sənətkarın istedadı ilə bərabər onun yaşadığı tarixi şəraitin də mühüm əhəmiyyəti var. Əslində hər bir yaşanılan tarix öz dövrünün sənətkarlarının yaradıcılığında tərənnüm edilməlidir ki, gələcək nəsillər də bu tarixdən xəbərdar olsun.**

Bu mənada musiqi incəsənəti özündə çox tarixi faktları ehtiva edir. Belə ki, keçmişimizin və bu günümüzün bir çox tarixi hadisələri bəstəkarlarımızın müxtəlif janrlı musiqi əsərlərində öz əksini tapıb. Musiqi və onun peşəkar yaradıcısı olan bəstəkarlar sanki tarixlə qoşa addımlayıblar. Onların qələmə aldıqları əsərlər insanların mənəvi zövqünü oxşamaqla bərabər hiss və duyğularını da ifadə edir. Yaşadığımız tarixin qələbə əzmini tərənnüm edən, zəfərimizdən soraq verən əsərlər buna misaldır. Bu əsərlərin də ilk ünvanı Azərbaycan Bəstəkarlar İttifaqıdır. Çünki əsası dahi Üzeyir Hacıbəyli tərəfindən qoyulan bu İttifaqın fəaliyyəti daim tarixi şəraitlə səsləşib. Odur ki, Azərbaycan Bəstəkarlar İttifaqının hər bir üzvü yaşadığımız tarixin möhtəşəm zəfərini musiqinin müxtəlif janrlarında qələmə aldıqları əsərlərində böyük ruh yüksəkliyi ilə ifadə edirlər. Şanlı qələbəmizin üçüncü ildönümünə həsr olunan "Zəfər festivalı"na Azərbaycan Bəstəkarlar İttifaqı da öz töhfələrini verdi. Bu töhfələr bəstəkarlarımızın Qələbə müjdəli əsərlərindən ibarətdir və həmin əsərlər "Zəfər festivalı" çərçivəsində geniş tamaşaçı auditoriyasına təqdim olundu. Müxtəlif musiqi ocaqlarında keçirilən konsert proqramları buna misaldır. Beləliklə oxucularımıza da həmin konsertlər haqqında qısa bir məlumat verək:

7 noyabrda M.Maqomayev Adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında "Zəfər" musiqi və teatr festivalı çərçivəsində 8 noyabr "Zəfər" gününə həsr olunan möhtəşəm bir konsert keçirildi. İlk musiqi nömrəsi olaraq dahi Üzeyir Hacıbəylinin "Koroğlu" operasının uverturası səsləndi. Ümumiyyətlə, bu konsertdə Üzeyir bəyin Əhməd Cavadın sözlərinə "Çırpınırdın Qara dəniz" və sonda "Koroğlu" operasından "Çənlibel" xoru səslənməklə sanki dahi sənətkarın ruhu da bu zəfəri müjdələdi. Unudulmaz bəstəkarımız Fikrət Əmirovun "Azərbaycan" kapriççiosu da musiqi bayramına xüsusi bir rəng qatdı.

Konsertin proqramı Zəfər müjdəli əsərlərlə zəngin idi. Bunlardan Xalq artistləri Firəngiz Əlizadənin "Zəfər Marşı" (sözləri müəllifindir), Dadaş Dadaşovun "Qələbə uverturası", Faiq Sücəddinovun "İthaf" (sözləri Baba Vəziroğlunundur), Eldar Mansurovun "Ulu torpaq" (sözləri Nahid Hacızadənindir), Əməkdar incəsənət xadimi Cavanşir Quliyevin "Əsgər marşı", "İrəvan Türk Cümhuriyyətinin Dövlət himni" (sözləri İsmayıl Böyüktürk və Abdulla Cəfərlinindir), "Zirvə" (sözləri Aydan Xəndanındır) əsərlərini və mərhum bəstəkar Rauf Əliyevin "Şuşanın dağları başı dumanlı" simfonik poemasını qeyd edə bilərik. Adı çəkilən əsərlər sanki dünənlə



*SƏADƏT TƏHMİRAZQIZI*
*Sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi*

bu gün arasında bir mənəvi körpüdür. Keçmişin nisgili, bu günün Zəfəridir. Çünki artıq Şuşamızın başı dumanlı deyil. Şuşa həmişə olduğu kimi bu gündə iftixar, qürur yerimizdir. Elə bu əsərləri də ifaçılarımız fəxrlə, qürurla ifa etdilər. Dirijor Mustafa Mehmandarovun idarəsi ilə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin müşaiəti, xalq artisti Gülbacı İmanovanın rəhbərliyi ilə Azərbaycan Dövlət xor kapellası, solistlər xalq artisti Azər Zeynalov, əməkdar artist Tural Ağasiyev, respublika və beynəlxalq müsabiqələr laureatı Rauf Məmmədzadə öz ifaları ilə tamaşaçılara əsl mübarizə əzmi, qələbə ovqatı bəxş etdilər.

7 noyabr tarixində daha bir konsert Beynəlxalq Muğam Mərkəzində keçirilib. Əməkdar incəsənət xadimi, Azərbaycan Bəstəkarlar İttifaqı idarə heyətinin üzvü, professor Məmmədağa Umudovun "Qarabağ Azərbaycandır" adlı müəllif konsertində bəstəkarın vətənpərvərlik mövzusunda qələmə aldığı əsərlər səslənib. Ümumiyyətlə, Məmmədağa Umudovun yaradıcılığında qələbəmizi tərənnüm edən əsərlər geniş yer tutur. Bəstəkar hələ 2016-cı ilin aprel döyüşlərindən sonra "Qələbəyə doğru" əsərini yazmaqla sanki bu günkü şanlı qələbəmizə öz əminliyini ifadə edib. Onun doğma Şuşamıza, müzəffər ordumuzun qələbəsinə həsr etdiyi əsərlərinin kitab şəklində nəşri də musiqi mədəniyyətimizə dəyərli töhfədir. Bu barədə təfsilatı ilə mühüm olaraq danışmaq... Bu barədə təbdirdə çıxış edən sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Jalə Qulamova daha ətraflı danışaraq bəstəkarın konsertdə səslənən əsərləri haqqında da tamaşaçılara məlumat verdi. Proqramda "Cümhuriyyət marşı", şəhid Xəyyam Əliyevin xatirəsinə həsr olunan "Duyğular", tar və simfonik orkestr üçün Konsert, "Zəfər", "Qala" və "Qarabağ Azərbaycandır!" əsərləri səsləndi. Bu əsərlərin ərsəyə gəlməsində təbii ki, ifaçıların da mühüm rolu var. Onlardan Respublikanın Əməkdar artistləri Sahib Paşazadə, İlham Nəcəfov, pianoçular Səbinə Zöhrabzadə, Svetlana Əhmədova, Aidə Həsənova, Mehriban Kərimova, Füruzə Qədimalıyeva, Türkiyəli pianoçu Can Okan, violin ifaçısı Cihad Aşkın, violonçel ifaçısı Cəlalə İsmayılzadənin adlarını çəkə bilərik. Konsertdə bəzi əsərlər videolarla təqdim olundu. Xalq artisti, görkəmli dirijor Fəxrəddin Kərimovun və gənc dirijor Mustafa Mehmandarovun interpretasiyalarında Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin müşayiəti ilə səslənən tar Konserti, "Qarabağ Azərbaycandır!", "İsgəndərnamə" baletindən fraqmentlər, "Cümhuriyyət marşı"nı qeyd edə bilərik.

Azərbaycan Bəstəkarlar İttifaqının Zəfər günlərində həyata keçirilən tədbirləri içərisində Ulu öndərimiz Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə təşkil olunan Konsert də xüsusi yer tutur.

Noyabrın 11-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Xalq artisti, görkəmli dirijor Fəxrəddin Kərimovun rəhbərliyi və idarəsi ilə Q.Qarayev adına Kamera orkestrinin müşayiətində müxtəlif nəslə mənsub bəstəkarların Ulu öndərə həsr olunan əsərləri ifa edildi. Bu yerdə Fəxrəddin müəllimin xidmətlərini xüsusi olaraq qeyd etməliyik. Çünki səslənən əsərləri bədii məzmununa görə düzgün təyin etmək, ilk dəfə ifa olunan əsərləri tamaşaçılara dolğun şəkildə çatdırmaq təbii ki, dirijordan böyük məharət tələb edir. Bu işin öhdəsindən bacarıqla gələn Fəxrəddin Kərimov həmişə olduğu kimi yenə də yüksək sənət nümunəsi nümayiş etdirdi.

Konsertdə səslənən əsərlərin əksəriyyəti ilk dəfə təqdim olundu və o əsərlərlə oxucularımızı da tanış edək: Proqrama vokal və instrumental əsərlər daxil edilmişdir. Əvvəlcə Əməkdar artist Elza Seyidcahanın Həsən Kamilin sözlərinə bəstələdiyi xor, solist və qiraətçi üçün "Ulu öndərə ithaf" əsəri səsləndi. Əsəri orkestrin müşayiəti, Əfruz Süleymanovanın idarəsilə C.Cahangirov adına xor, Əməkdar artistlər Azad Şükürov və İnarə Babayeva təqdim etdilər. Əməkdar müəllim, bəstəkar Lalə Cəfərovanın Leyla Əliyevanın sözlərinə bəstələdiyi "Darıxıram" romans-balladası nəvənin babaya olan hisslərini ifadə edirdi. İlk dəfə səslənən bu əsəri Fəxri Kazım Nicat ifa etdi. Bəstəkar Kəmalə Əlizadənin Əməkdar artist İlham Nəzərovun ifasında səslənən "Vətənim mənim" romansı da maraqla qarşılandı.

Konsertdə səslənən digər əsərlər instrumental musiqi nümunələri olsa da onların da əsas qayəsi Ulu öndərin obrazının, onun xatirəsinin musiqidə təcəssümü idi. Həmin əsərlərdən Xalq artisti Azər Dadaşovun "Serenada"sını qeyd edə bilərik. Bu yerdə onu da deməliyik ki, Q.Qarayev məktəbinin layiqli davamçısı olan Azər Dadaşov Ulu öndərə bir neçə əsər həsr edib. Onun 16-cı simfoniyası və ilk dəfə Filarmoniyada səslənən "Serenada" əsəri isə məhz 100 illik yubileylə bağlıdır.

Konsertdə ilk dəfə səslənən əsərlərdən biri də Yaşar Xəlilovun tar və orkestr üçün "Heydər dastanı" idi. Əməkdar artist tarzən Zeynalabdin Babayev orkestrin müşayiəti ilə 4 hissəli əsərin 1-ci və 4-cü hissələrini ifa etdi. Heydər Əliyevin xatirəsinə Rüfət Ramazanovun əsəri də elə "Xatirə" adlanırdı. Bəstəkar bundan əvvəl də 2013-cü ildə Ulu öndərə "Əsrin dahisi" adlı simfonik dastan yazıb. "Xatirə" əsəri isə 100 illiyə həsr olunub və ilk dəfə səsləndi. Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunan və ilk dəfə səslənən əsərlərdən biri də Əməkdar incəsənət xadimi Elnarə Dadaşovanın Kamera Orkestri üçün Diptix "Ulu öndər" əsəri oldu. Nərminə Nağıyevanın "Kader" və qazi bəstəkarımız Vüqar Məmmədzadənin "Adajio" əsərləri də öz orijinallığı və bədii məzmunun dolğun ifadə vasitələri ilə mövzunu əhatə edən əsərlər idi.

Konsertin proqramında Ulu öndərlə bahəm onun ömür-gün yoldaşı, görkəmli akademik Zərifə Əliyevanın da xatirəsi yad olundu. Bu mənada bəstəkar Samir Əliyevin "Elegiya" əsərini qeyd edə bilərik. Heydər Əliyev və Zərifə Əliyevanın əziz xatirəsinə həsr olunan bu həzin və lirik məzmunlu əsəri orkestrin müşayiəti ilə çello alətində Beynəlxalq müsabiqələr laureatı Orxan Hüseynov ifa etdi.

Konsertin sonunda bəstəkar, Beynəlxalq müsabiqələr laureatı Pikə Axundovanın "Vətənə doğru" adlı əsəri səsləndi. Əsər maraqlı tərkib üçün yazılıb. Belə ki, orkestrin müşayiəti ilə tar (İbrahim Babayev), kamança (Hüseyn Nağıyev), balaban (Nicat Məsimov) alətlərinin və ritm qrupunun (Cəfər Həsənovun rəhbərliyi ilə) birgə ifasından möhtəşəm bir səslənmə dinlənildi. Əvvəla qeyd edək ki, milli elementlərin vəhdəti Pikə Axundovanın dəsti-xəttinin əsas qayəsidir. Bu əsərdə həmin cəhət daha qabarıq şəkildə öz əksini tapıb. Belə bir əsərin məhz proqramın sonunda təqdim olunması konsertin ideya və mövzu dairəsinin sanki kulminasiyası idi.

Beləliklə, Azərbaycan Bəstəkarlar İttifaqı "Heydər Əliyev-100" silsiləsindən daha bir tədbirini Mədəniyyət Nazirliyinin də dəstəyi ilə həyata keçirməklə həm Ulu öndərin obrazının musiqidə təcəssümünü, həm də Azərbaycan bəstəkarlıq məktəbinin uğurlu fəaliyyətində məhz Heydər Əliyevin bəstəkarın yüksək amalı və vəzifələri - adlı tövsiyələrindən bəhrələndiyini bir daha nümayiş etdirdi. Buir sözlə, bəstəkarlarımız üçün Heydər Əliyev obrazı əsl ilham mənbəyidir. Odur ki, Ulu öndərin 100 illik yubileyi bir daha onların yaradıcılıq eşqinin daha da rövnəqləndirdi. Hər bir bəstəkar bu yubileyə öz töhfəsini verməyə çalışır. Bu mənada musiqişünaslar da bir xeyli tədqiqat işləri ərsəyə gətiriblər.

Respublikanın Xalq artisti, AMEA-nın müxbir üzvü, professor, Azərbaycan Bəstəkarlar ittifaqının sədri Firəngiz Əlizadənin ideya-müəllifi və sənətşünaslıq üzrə fəlsəfə doktoru Səadət Təhmirazqızının tərtibçi-müəllif olduğu "Heydər Əliyev və musiqi mədəniyyəti" kitabı bu yubiley ilində Ulu öndərimizə musiqi ictimaiyyətinin hörmət və məhəbbətinin ifadəsidir. Kitabda dahi şəxsiyyətin Azərbaycan musiqi mədəniyyətinə olan qayğı və diqqəti rəsmi sənədlərdə öz əksini tapıb və ona həsr olunan musiqi əsərlərindən bəhs olunur.

Ulu öndərin layiqli davamçısı və xalqımıza bu zəfər sevincini bəxş edən Ali Baş Komandan möhtərəm Prezidentimiz İlham Əliyev də öz fəaliyyətində musiqi mədəniyyətinə xüsusi diqqət göstərir. Cənab Prezidentimizin bu xidmətləri də Xalq artisti, AMEA-nın müxbir üzvü, professor Firəngiz Əlizadənin ideya-müəllifi və Səadət Təhmirazqızının tərtibçi-müəllif olduğu "İlham Əliyev və musiqi mədəniyyəti" kitabında da öz əksini tapıb. Bu kitabların təqdimatı da musiqi mədəniyyətimiz üçün mühüm əhəmiyyət kəsb edir.

11-15 noyabr tarixlərində Ekspo Mərkəzində IX Bakı Kitab Sərgisi çərçivəsində təqdimat mərasimi baş tutan çox maraqla keçdi. Xüsusən gənc nəslin nümayəndələri bu təqdimata maraq göstərib adı çəkilən kitabları əldə etmələri gənclərimizin uğurlu gələcəyindən soraq verir. Bu gələcəyin də mənbəyi Heydər Əliyev ideologiyası, qurucusu isə İlham Əliyevin tarixi fəaliyyətlərindən intişar tapır. Bu silinməz tarix elm və incəsənətdə o cümlədən, musiqidə də tərənnüm olunur.

"Heydər Əliyev və musiqi mədəniyyəti", "İlham Əliyev və musiqi mədəniyyəti" kitablarının təqdimat mərasimində iştirak edənlər də bu iki şəxsiyyətin böyük tarixi əhəmiyyətindən danışdılar. Jurnalist, "Qızıl qələm" mükafatı laureatı, Azərbaycan Radiosunun xüsusi layihələr departamentinin rəhbəri Dilşad Tahirqızı, Əməkdar incəsənət xadimi, professor Məmmədağa Umudov və digər tanınmış ziyalılar çıxış edərək Azərbaycan mədəniyyətinin inkişafında Heydər Əliyev və İlham Əliyevin fəaliyyətinin misilsiz olduğundan bəhs edərək təqdim olunan kitabların mədəniyyətimiz üçün dəyərli töhfələr olduğunu vurğuladılar. Beləliklə, Zəfər Festivalı çərçivəsində Azərbvaycan Bəstəkarlar İttifaqı da öz töhfələri ilə musiqi xadimlərinin də fəaliyyətini nümayiş etdirdi. Bu yaradıcılıq fəaliyyətinin davamlı və uğurlu olmasını arzulayırıq.

ANALİZ

# İnsan hüquqları sahəsində Azərbaycan nümunəsi

## Və ya vətəndaşının hüququnu hər şeydən üstün tutan dövlət modeli necə yarandı?

*Müstəqil Azərbaycanın dövlətçiliyinin möhkəmlənməsi hər şeydən əvvəl respublikada vətəndaşların hüquqlarından, qanunun aliliyindən asılıdır. Demokratiyanın ardıcıl inkişafı, siyasi plüralizmlə bərabər, insan azadlığı şəraitində hər bir vətəndaşın söz, vicdan, din, sahibkarlıq, mülkiyyətçilik, seçib-seçilmək kimi hüququnu təminetmə fonunda baş verir.*



### Demokratik dövlət yolunda hüquq təminatı

Demokratik, hüquqi dövlət qurmaq, əsaslı islahatlar aparmaq üçün ilk növbədə ölkədə ictimai-siyasi sabitliyi, qanunun aliliyini, asayişi təmin etmək lazımdır. Azərbaycanda yaşayan hər bir vətəndaş milliyyətindən, dinindən, dilindən, siyasi əqidəsindən asılı olmayaraq demokratik azadlığa və hüquqlara malikdir. Təsadüfü deyil ki, ölkəmiz dünyada tolerant siyasətlə idarə edilən, habelə tolerant yaşayışın təmin edilməsi ilə məşhur olan azsaylı ölkələrdəndir.

İnsan hüquqları bir dövlətin əsasını təşkil edən, o dövləti daim güclü edən demokratik proseslərin təməl daşıdır. Çünki vətəndaş cəmiyyətinin formalaşdırılması, demokratik-hüquqi dövlət quruculuğu, bilavasitə insan hüquq və azadlıqlarının möhkəm təminatının bünövrəsi üstündə mümkündür. Bir ölkədə vətəndaşın hüquqi azadlığı yoxdursa, o ölkənin idarəetməsində, siyasətində çatlar yaranacağı mütləqdir.



Azərbaycanda insan hüquq və azadlıqları, humanizm, ədalət prinsipləri həmişə üstün səviyyədə qorunub. İstənilən sahədə insanların hüquqlarının qorunması, azadlıqlarının məhdudlaşdırılmaması, hüquq islahatları, məhkəmə sisteminin təkmilləşdirilməsi ilə bağlı fərman və sərəncamların imzalanması da məhz bu prinsiplərə xidmət edir.

### İnsan, vətəndaş, hüquq faktoru

Ümummilli lider Heydər Əliyev hakimiyyətə gəldiyi gündən etibarən, respublikamızda demokratik-hüquqi dövlət quruculuğu prosesini insan hüquqlarının təmin edilməsi kontekstində səciyyələndirib. O bütün çıxışlarında insan faktorunun, onun hüquqlarının demokratik bir cəmiyyətin təməl daşı olduğunu qeyd edirdi: "Biz demokratiya yolunu seçmişik, demokratiyanı da inkişaf etdiririk. Biz insan haqlarını təmin etmişik. Azərbaycanda mətbuat azadlığı, vicdan azadlığı, söz azadlığı tamamilə təmin olunub, siyasi plüralizim hökm sürür. Ölkəmizdə hər şey demokratik prinsiplər əsasındadır".

Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycan öz inkişaf yolunda insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən dövlət siyasətində nəzərdə tutulan hər xırdalığa xüsusi diqqət ayırdı. Ulu Öndər tərəfindən bir sıra mühüm əhəmiyyətə malik fərman və sərəncamlar imzalanması, ölkəmizdə insan hüquqlarının qorunması və təmin edilməsi siyasətinin həyata keçirilməsi, bu sahədə milli mexanizmlərin təkmilləşdirilməsi də bu qəbildən görülən işlərdəndir.

Azərbaycan Respublikası Prezidentinin "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" 22 fevral 1998-ci il tarixli Fərmanı Azərbaycan vətəndaşlarının hüquqlarının müdafiəsi baxımından əhəmiyyətli yer tutur. Həmin Fərmanda qeyd olunur ki, Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra Beynəlxalq Dövlətlər Birliyinin tamhüquqlu üzvü kimi əsrlərin sınağından çıxmış ümumbəşəri dəyərlərin üstünlüyünü qəbul edərək, demokratik-hüquqi və dünyəvi dövlət quruculuğunun özünün inkişaf yolunu seçib.

### Yeni sistem, yeni hakimiyyət, yeni hüquqlar

Məlumdur ki, 80-ci illərin axırlarında-90-cı illərin əvvəllərində Azərbaycanda insan hüquqlarının kütləvi surətdə pozulması fonunda hökm sürən xaos milli, dini, hüquqi məhdudiyyətlərə gətirib çıxarmışdı. İnsanlar öz konstitusion hüuqlarından istifadə edə bilmir, azadlıqları məhdudlaşdırılır, hüquqları əllərindən alınırdı. Respublika idarəetməsində hökm sürən qarışıqlıq birbaşa cəmiyyətə, insanlara təsir göstərirdi.

Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra insan hüquqlarının, qadınların, uşaqların, milli və dini azlıqların hüquqlarının müdafiəsinə dair dövlət proqramlarının, layihələrin işlənib hazırlanması birinci vəzifə oldu. Pərakəndə halda, harda gəldi məskunlaşan qaçqınların və məcburi köçkünlərin yaşama, təhsil, iş kimi hüquqları təmin edildi, əlillərin, müharibə iştirakçılarının, aztəminatlı ailələrin iqtisadi və sosial hüquqları istiqamətində dövlət proqramları hazırlandı.

Bundan əlavə, İnsan hüquqları üzrə Azərbaycan Respublikasının səlahiyyətli müvəkkili (Ombudsman) postunun təsis olunması, insan hüquq və azadlıqlarının müdafiəsini həyata keçirən dövlət orqanlarının yaradılması bu sahədə ən böyük işlərdən biridir. Ombudsman institutunun fəaliyyəti ölkədə vətəndaşların hüquqlarının dövlət tərəfindən təmin edilməsini və bəzi vətəndaşların pozulmuş hüquqlarının bərpası işlərini həyata keçirir və bu səbəbdən də əhali arasında dövlətin əsas hüquqi yar-



dım mərkəzi statusunu daşıyır.

Həmçinin, hüquqi islahatların həyata keçirilməsi ilə əlaqədar normativ-hüquqi aktların, insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi kimi işlər, insan hüquqlarının qorunması sahəsində hüquqi mexanizmlərin təkmilləşdirilməsi və tətbiq edilməsi Heydər Əliyevin Azərbaycanda insan hüquqları istiqamətində gördüyü əvəzsiz işlərdəndir.

### İnsan hüququna xidmət edən İnstitut

1998-ci ildə, Heydər Əliyevin hakimiyyəti dövründə İnsan hüquq və azadlıqları problemlərinə dair elmi-tədqiqat işlərinin aparılması, elmi tövsiyələrin hazırlanması və bu sahədə hüquqi biliklərin dərinləşdirilməsi məqsədilə Azərbaycan Elmlər Akademiyasının nəzdində İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İnstitutu yaradılması isə onun Azərbaycan vətəndaşlarına söz verdiyi hüquqi dövlətin təməlinin möhkəmləndirilməsi istiqamətində atdığı ən qətiyyətli addımlardan oldu.

Ümumiyyətlə, Heydər Əliyevin bu istiqamətdə yürütdüyü siyasət, imzaladığı fərman və sərəncamlar, insan hüquqlarının qorunması sahəsində bütün istiqamətləri əhatə edirdi. İnkişaf üçün demokratiya yolunu rəhbər tutan ulu öndər Azərbaycan cəmiyyətində insan və vətəndaş hüquqları və azadlıqlarının təmin edilməsi məqsədilə 18 iyun 1998-ci il tarixli Sərəncamı ilə İnsan Hüquqlarının Müdafiəsinə dair Dövlət Proqramını təsdiq etdi.

Bundan əlavə, insan hüquq və azadlıqlarının qorunması sahəsində həyata keçirilən siyasətin istiqamətləndirilməsində Azərbaycan Prezidentinin "BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 50 illiyinin keçirilməsi haqqında" 16 aprel 1998-ci il, "İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İnstitutunun yaradılması haqqında" 30 noyabr 1998-ci il tarixli, Azərbaycan Respublikası hökuməti və ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu arasında qarşılıqlı anlaşma haqqında memoranduma əsasən, razılaşdırılmış layihələr üzrə Azərbaycan Respublikası tərəfindən əlaqələndirici şəxs barədə sərəncamları da böyük çəkiyə və əhəmiyyətə malik idi.

İnsan hüquqları və ölüm cəzası

1998-ci il fevralın 10-da müvafiq sərəncamla Azərbaycanda ölüm hökmünü məhz Heydər Əliyev ləğv edib. Həmin sərəncamdan sonra, əvvəllər barələrində ölüm hökmü çıxarılmış insanların cəzasını ömürlük həbs cəzası ilə əvəzləndi. Bu, Azərbaycan dövlətinin insan hüquqlarının müdafiəsi və təmin olunması siyasəti çərçivəsində həyata keçirilən ən mühüm addımlardan idi.

Statistik məlumatlara görə, 1988-1993-cü illər ərzində 32 nəfər haqqında ölüm hökmü icra olunub. Onlardan 8 nəfər haqqında hökm 1993-cü ildə Prezident fərmanları əsasında icra edilib. 1993-cü ilin iyun ayından ölkə rəhbərliyinə qayıtmış Heydər Əliyev vəd etdiyi demokratik və humanist ölkə quruculuğu üçün Azərbaycanda ölüm hökmünün icrasına moratorium qoyur, 10 fevral 1998-ci il tarixli Qanunla isə tamamilə ləğv edir.

Bu addım Azərbaycan dövlətinin, Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə humanist və demokratik yola qədəm qoyduğunu, ölkədə insan hüquqlarının qorunmasının necə böyük dəyər olduğunu bir daha təsdiq edir. Azərbaycanda insan və vətəndaş hüquqları və azadlıqlarının müdafiəsi, onların həyata keçirilməsinin təmin edilməsi, bu hüquqların pozulmasının qarşısının alınması istiqamətində aparılan dövlət siyasətinin həyata keçirilməsində icra hakimiyyəti orqanlarının üzərinə böyük vəzifələr qoyan ulu öndər hər bir dövlət orqanının bu istiqamətdə məhsuldar işləməsini tələb edirdi.

Heydər Əliyev vətəndaşların əmək, azad sahibkarlıq, istirahət, mənzil, sosial təminat, ekoloji, təhsil, tibbi yardım almaq və digər hüquqların müdafiəsinə ciddi nəzarət mexanizmi yaratdı və özündən sonra da bu mexanizmi İlham Əliyevə təhvil verdi. Prezident İlham Əliyev bir layiqli siyasi varis kimi bu mexanizmi daha da təkmilləşdirərək və müasir dövrün tələblərinə uyğunlaşdıraraq dafa effektli şəkildə həyata keçirir. Bu səbəbdən də Azərbaycan insan hüquqları üzrə inkişaf etmiş ölkələrin 200-300 ildə keçdiyi yolu cəmi 20-30 ildə keçib.

***Lalə Mehralı***

***Məqalə, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) "Ümummilli Lider Heydər Əliyev və Azərbaycanda insan hüquqları" mövzusunda elan etdiyi müsabiqəyə təqdim edilir.***

ŞƏRH + AKTUAL

# Vaşinqton niyə "dəridən-qabıqdan" çıxır?

## "Kavkazskiy Vestnik": "İndi Azərbaycan Ordusu öz ərazilərini azad etdikdən sonra 907-ci düzəliş yenidən qüvvəyə minir"



***Bakının Vaşinqtondan sülh və təhlükəsizlik istəyi ilə bağlı gələn bəyanatların qeyri-səmimi olduğundan şübhələnməyə bütün əsasları var. Ümumiyyətlə, ölkəmiz uzun illərdir beynəlxalq terrorizmə qarşı aparılan genişmiqyaslı tədbirlərdə ilk yerlərdən birini tutub. Eyni zamanda, ABŞ-la bu istiqamətdə paralel fəaliyyət göstərmiş Azərbaycan bir vaxtlar Əfqanıstanda Amerikaya kömək etmək üçün çox işlər görüb, ölkənin ovaxtkı rəhbərliyini dəstəkləyib və səmasını koalisiya təyyarələrinin uçuşu üçün açıb. Maraqlıdır ki, üç il əvvəl Əfqanıstan 44 günlük müharibə zamanı Azərbaycana dəstəyini ifadə edərək, erməni işğalına son qoyulmasını tələb edib. Amma Bakı heç vaxt ABŞ-dan heç bir təşəkkür almadı.***

### Vaşinqton 907-ci düzəlişi yenidən istifadə etməklə Bakını hədələməyə cəhd edir

Qeyd edək ki, mövzu ilə bağlı "Vestnik Kavkaza"nın məqaləsində də sözügedən faktora toxunulub. Misal üçün bildirilib ki, ABŞ Nümayəndələr Palatasının komitəsindəki çıxışında Ceyms Obrayen 30 il ərzində Vaşinqtonun Azərbaycan hökumətinə hər hansı birbaşa yardımını qadağan edən "Azadlığa dəstək aktının" bir hissəsi kimi 907-ci Düzəlişə qayıtmağın zəruriliyini bəyan edib. Düzəliş 2001-ci ildə dayandırılmışdı və indi Vaşinqton onu yenidən istifadə etməklə Bakını hədələməyə cəhd edir.

### Absurd məsələ isə odur ki...

"Söz yox ki, bu uğursuz düzəlişin dayandırılması və sonradan mümkün yenidən işə salınması siyasi motivlidir" yazılan məqalədə xatırladılıb ki, 1990-cı illərdə bu düzəliş ABŞ-dakı erməni diasporunun təkidi ilə, guya "Ermənistanın suveren ərazisinin Azərbaycan tərəfindən işğalı" ilə bağlı qəbul edilib.

Absurd məsələ isə odur ki, hər şey əksinə idi - Azərbaycan ərazisinin 20%-ni işğal altında saxlayan Ermənistan idi. İndi Azərbaycan Ordusu öz ərazilərini azad etdikdən sonra 907-ci düzəliş yenidən qüvvəyə minir. Düzdür, indi başqa səbəbə görə.

Azərbaycan Ermənistanın baş naziri Paşinyanın etməyə çalışdığı kimi, Vaşinqtonun Rusiya ilə münasibətləri dayandırmaq üçün təcili tövsiyələrinə məhəl qoymayaraq müstəqil siyasət yürüdür: "Amma Azərbaycan rəhbərliyi bütün ölkələrlə öz milli maraqlarından çıxış edərək balanslaşdırılmış münasibətlər qurur. Belə ki, Azərbaycanın enerji resursları Avropa bazarına çıxırsa, tərəvəz və meyvələr Rusiya bazarına çıxır, mədəniyyət sahəsində əlaqələr möhkəmlənir".

"Bütün bunlar Azərbaycanın, Avropanın, Rusiyanın obyektiv ehtiyaclarının maraqlarına uyğundur. Bakı da bütün bu müstəqillik illərində ABŞ-la münasibətləri qarşılıqlı hörmət və anlaşma əsasında qurub və liderlər danışıqlar masası arxasında aktual məsələləri həll etməyə nail olublar. İndi də belə olacağına inanmaq istəyirik", - deyə sözügedən məqalədə vurğulanır.

***Afət Tahirqızı****

# Qələbələr, qaliblər partiyası

***Düz 31 il öncə tarixi zərurətdən yaranan Yeni Azərbaycan Partiyası zamanın sınaqlarından çıxmış, xalqın etimadını layiqincə doğrultmuş, müstəqil Azərbaycanımızın firavan gələcəyinin dünəni, bu günü və gələcəyi naminə öz fəaliyyətini göstərən siyasi partiyadır. Necə ki, Yeni Azərbaycan Partiyasının yaradıcısı, Azərbaycan xalqının xilaskarı ulu öndərimiz Heydər Əliyev demişdir: "Yeni Azərbaycan Partiyası dünənin, bu günün, gələcəyin partiyasıdır".***




***Həbib Misirov***
***YAP Kəlbəcər rayon təşkilatının sədri***

Ulu Öndər Heydər Əliyev ideologiyasının tərənnümü və tarixi reallığı əsasında yaranan və artıq 31-ci ildönümünə doğru inamla addımlayan YAP bu gün də öz uğur və tərəqqi sözünü deməkdədir. Məhz Azərbaycan xalqının və dövlətinin xilaskarı, ümummilli lider Heydər Əliyevin qətiyyəti, xalqımızın həmrəyliyi və dönməzliyi sayəsində, ölkəmizin ən çətin məqamlarında yaranan YAP bu gün regionumuzun ən böyük siyasi təşkilatı olaraq bir sıra əhəmiyyətli, qlobal məsələlərdə söz sahibi kimi çıxış edir. Və bu gün partiyamızın 31 ilini Qarabağımızın 30 ildən sonra 44 gün ərzində Ali Baş Komandan, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin diplomatik siyasəti, Müzəffər Ordumuzun, rəşadətli əsgər və zabitlərimizin qəhrəmanlığı sayəsində əldə edilən Qələbə günümüzün üçüncü ilinin sevincini yaşadığımız günlərdə qeyd edirik. Məhz bu baxımdan da, bu gün Azərbayacanın son illərdə qazandığı böyük nailiyyətlər ulu öndər Heydər Əliyevin yaratdığı və bu gün Prezident İlham Əliyevin Sədri olduğu Yeni Azərbaycan Partiyasının fəaliyyəti ilə bilavasitə bağlıdır. Həmçinin, 31 ilə yaxın şərəfli yolda Azərbaycanın qazandığı uğurların bələdçisi kimi çıxış edən Yeni Azərbaycan Partiyasının 2021-ci il martın 5-də VII qurultayının keçirilməsi də böyük tarixi hadisə idi. Çünki bu qurultay birliyimizin, həmrəyliyimizin nümayişi olmaqla, həm də bu 31 illər ərzində Yeni Azərbaycan Partiyasının daim təkmilləşməyə, yeniləşməyə doğru getdiyinin bir daha əyani şəkildə sübutu idi.

Cəmiyyət daim yeniləşir, ictimai münasibətlərin inkişaf səviyyəsi yeni çağırışlar və reallıqlar yaradır. Bütün bunlar da öz növbəsində YAP-ın hakim partiya kimi qarşısında yeni tələblər və vəzifələr qoyur. Burada bir məqamı xüsusilə qeyd etməliyik ki, YAP həm cəmiyyətin irəliyə doğru, keyfiyyətcə yeni inkişaf mərhələlərinə daxil olmasını və onun mütərəqqi inkişafını təmin edən aparıcı siyasi qüvvə kimi çıxış edir, həm də yaratdığı yeni çağırışları və reallıqları özü tənzimləyərək, gələcəyə istiqamətlənmiş məqsəd və vəzifələr müəyyənləşdirir. Məhz bundan irəli gələrək, iki il öncə 2021-ci il martın 5-də keçirilmiş Yeni Azərbaycan Partiyasının VII qurultayı da ölkəmizin ictimai-siyasi həyatında çox mühüm hadisə kimi yadda qalıb. Bu gün Prezident İlham Əliyevin ölkəmizdə həyata keçirdiyi genişmiqyaslı islahatlar bütün sahələri, o cümlədən siyasi sferanı da əhatə edir. Dövlətimizin başçısı, partiyanın Sədri İlham Əliyevin söylədiyi kimi, Yeni Azərbaycan Partiyasının VII qurultayının keçirilməsinin əsas səbəbi ölkədə və regionda yaranmış yeni reallıqlardır. Artıq bir neçə ildir ki, ölkəmizdə həyata keçirilən islahatlar siyasi partiyaların da fəaliyyətinə öz müsbət təsirini göstərir. Yeni Azərbaycan Partiyanın VII Qurultayının keçirilməsi və qurultayda yeni Nizamnamənin qəbul olunması, müəyyən yeniliklərin edilməsi, struktur dəyişikliyi siyasi islahatların tərkib hissəsi kimi dəyərləndirilə bilər.

Və ən əsası isə onu da vurğulamaq lazımdır ki, bu gün Prezident İlham Əliyevin apardığı siyasətin məqsəd və vəzifələri, eyni zamanda, Onun Sədri olduğu partiyanın məqsəd və vəzifələri deməkdir. Buna görə də Prezident İlham Əliyevin təsdiq etdiyi, cəmiyyətin müxtəlif sahələrinin inkişafını nəzərdə tutan milli prioritetlər, dövlət proqramları, konsepsiyalar, İnkişaf strategiyaları və fəaliyyət planlarındakı müddəalar partiyanın proqramında öz əksini tapmışdır. Digər əsas məqam isə, 31 il ərzində şərəfli yol keçərək monolitliyini qoruyan, güclənən və öz üstünlüyü, parlaq qələbələri ilə heç bir seçkidə rəqib tanımayan Yeni Azərbaycan Partiyasının seçkilərdə qazandığı qələbələr bu partiyanın cəmiyyətdəki yerinin möhkəmliyini, dövlətçiliyimizin gücləndirilməsi istiqamətində həyata keçirilən siyasətə xalq dəstəyini, insanların bu təşkilata yüksək etimadını göstərir. Bütün iştirak etdiyi seçkilərdə Yeni Azərbaycan Partiyası qələbə qazanaraq bir daha ölkə vətəndaşlarının Azərbaycan reallığına verdiyi qiymət və Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətə inamın ifadəsidir.

Məhz bu gün sevinirik ki, ulu öndər Heydər Əliyevin ideyaları yaşayır, qalib gəlir. Azərbaycan Prezidenti, Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən bu ölməz amallar sədaqətlə, cəsarətlə daha müvəffəqiyyətlə həyata keçirilir. Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin söylədiyi kimi: "YAP sözün əsl mənasında ümumxalq partiyasına çevrilib. Cəmiyyətimizin bütün təbəqələri hakim partiyada birləşib. YAP nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi təşkilatıdır. Partiyamızın böyük ənənələri var. Yeni Azərbaycan Partiyası bundan sonra da ölkəmizdə gedən bütün proseslərin mərkəzində olacaq".

## Böyük Qayıdış ermənilərə necə təsir edib?

### *DEPUTAT ŞƏRH ETDİ*



"Azərbaycan xalqı torpaqlarını işğaldan azad edəcəyinə inanırdı. Cənab Prezidentin apardığı düşünülmüş daxili və xarici siyasətin Azərbaycan dövlətçiliyini möhkəmləndirdiyi, qüdrətli silahlı qüvvələr yaratdığı və torpaqlarımızın çox da uzaq olmayan bir dövrdə işğaldan azad ediləcəyindən xəbər verirdi". Bu sözləri SİA-ya açıqlamasında deputat Aydın Mirzəzadə deyib. Deputat sözlərinə belə davam edib: "Bütün bunlarla yanaşı hətta işğal dövründə belə Böyük Qayıdış adlı plan hazırlanırdı. Torpaqlar işğaldan azad edildikdən sonra görüləcək işlər müəyyənləşdirilirdi. Məhz belə bir proqramın hazırlanması və bunun bütün detallarının əvvəldən müəyyənləşdirilməsi torpaqların işğaldan azad edildikdən sonra qısa bir müddətdə qayıdış üçün əsas yaratdı. Baxmayaraq ki, Ermənistan əsarətində qalmış torpaqlarda kommunikasiyalar dağıdılıb, yaşayış fondu və sosial obyektlər tamamilə yararsız hala salınıb, torpaqlarımızın bir hissəsi minalanıb. Bununla belə hərtərəfli gərgin işlər aparıldı və artıq Vətən müharibəsindən 3 il kimi qısa zaman keçməsinə baxmayaraq 5 yaşayış məntəqəsinə keçmiş məcburi köçkünlər qayıdıb.



Gələn ilin əvvəlində Şuşa şəhərinə qayıdış baş tutacaq. Gələn ilin ortasında Ağdama ilk keçmiş sakinlər qayıdıb məskunlaşacaq. Bütün bunlar hamısı Azərbaycanın öz torpağına sahibləndiyinin, Azərbaycan dövlətinin öz məcburi köçkün sakinlərinin problemlərinin həllinə həmişə diqqət etdiyinin göstəricisidir.

Eyni zamanda, işğaldan azad olunan ərazilərdə hərbi infrastruktur yaradılır, Ermənistanla sərhəd xətti möhkəmləndirilir, təhlükəsizliyimiz üçün vacib addımlar atılır və məcburi köçkünlərin kütləvi sürətdə geri qayıdışı onu xəbər verir ki, Azərbaycan insanları öz torpaqlaırna bağlıdırlar, həmin torpağın sahibi kimi qısa bir zamanda ora qayıtmaq əzmindədirlər. Bu eyni zamanda Ermənistana bir daha Azərbaycana qarşı hər hansı bir təxribatdan çəkindirmək mesajı verir. Ermənistanın artıq Azərbaycanın güclü bir dövlətə çevrildiyini nəzərə alması, Azərbaycanla bir daha güc-təxribat dilində danışmaqdan əl çəkməsi mesajını verir.

Cənab Prezidentin apardığı siyasət Azərbaycan dövlətçiliyini daha da möhkəmləndirir, Azərbaycanın hər bir yerində inkişaf üçün daha böyük imkanlar yaradır, Azərbaycanın müdafiə və təhlükəsizlik sistemini möhkəmləndirir. Bu məsələdə Azərbaycan xalqı öz liderinin fəaliyyətini dəstəkləyir".

***Ayşən Vəli***

# Aleksey Fenenko: "ABŞ-ın Ermənistana dəstəyi regionda heç nəyi dəyişə bilməyəcək"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb*





***Rusiya Beynəlxalq Məsələlər Şurasının eksperti Aleksey Fenenko "Moskva-Baku" portalına müsahibəsində İrəvanda anti-Rusiya meyllərinin güclənməsini, ABŞ Dövlət Departamentinin Azərbaycanı tənqid etməsini və Ermənistan hakimiyyətinin qəfildən Zəngəzur dəhlizinə bənzər başqa bir layihəni irəli sürməsini şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.***

*- Ermənistanın baş nazirinin hakim partiyasının nümayəndəsi, Müdafiə və Milli Təhlükəsizlik Komitəsinin sədr müavini Armen Xaçatryan bildirib ki, guya Rusiya Ermənistan-Azərbaycan nizamlanmasında vasitəçi kimi özünü nüfuzdan salıb və İrəvan Moskvanın vasitəçiliyi ilə Azərbaycanla sülh sazişi imzalamaq niyyətində deyil. Və o, söz verib ki, yalnız Qərbin zəmanəti altında saziş imzalayacaqlar.*

- Bunda təəccüblü heç nə yoxdur. Son 20 ildə Ermənistanda da oxşar hisslər artmaqdadır. İndi biz sadəcə onların səsini daha çox eşidirik. Əvvəllər erməni liderləri üstüörtülü şəkildə danışırdılar. Hər şey onunla başladı ki, "biz Qərbdə tərəfdaşlar axtararaq Rusiyanın təsirini şaxələndirmək istəyirik" tezisi ortaya atdılar. Sonradan eşitməyə başladıq: "Qərbdə tərəfdaş axtarışı bizim Rusiya ilə münasibətlərimizə zidd deyil". İndi üçüncü mərhələyə keçid baş verib, o zaman Ermənistan hakimiyyəti mahiyyətcə "bəli, Qərb Rusiyaya alternativdir və biz bunu deməkdən çəkinmirik" deyir. Ermənistan Rusiyadan uzaqlaşmaqda davam edir və bununla əlaqədar onun KTMT-dəki statusu məsələsi təbii olaraq ortaya çıxacaq.

Bu, uzun sürən siyasi prosesin inkişafının nəticəsidir. Bütün bunlar 21-ci əsrin ilk illərində Ermənistan NATO ilə hərbi proqramlar hazırlamağa başlayanda, Şimali Atlantika Alyansı ilə ən çox proqrama malik olan KTMT ölkəsi oldu. Eyni zamanda, Qarabağın erməni separatçıları həyasızcasına bəyan etdilər ki, onların taleyi ilə ATƏT məşğul olduğu üçün dünyada tanınmayanlar arasında "ən çox tanınan" onlardır. Eyni zamanda, Ermənistan postsovet məkanında dondurulmuş münaqişələrlə bağlı Rusiyanın təşəbbüslərini rədd edərək, Fransa və ABŞ-ın bununla məşğul olduğunu bəyan etdi. Sonra Ermənistanın qərbyönlü meyli formalaşmağa başladı. Bu meyl özünü son onilliyin ortalarında, Ermənistanın daha intensiv şəkildə Qərbdə tərəfdaşlar axtarmağa başladığı və qondarma Qarabağ məsələsində ona kömək edəcəklərinə ümid etdiyi vaxtda göstərdi.

Ermənistan Avropa İttifaqı ilə assosiasiya sazişini natamam formada da olsa imzalayıb. Rusiyanın narazılığına baxmayaraq, imzaladılar. 2018-ci ildə Ermənistandakı çevrilişdən sonra yeni lider Nikol Paşinyanın ilk işi KTMT-nin işini əngəlləmək oldu. Eyni tendensiyalar 5 ildən sonra təkrarlanır.

İndi Paşinyan da nümayiş etdirir: Rusiya Qarabağ məsələsində Ermənistanı dəstəkləmədiyi üçün biz ondan uzaqlaşacağıq. Yeganə odur ki, bu uzaqlaşma meyllərini Ermənistanda Paşinyan başlatmayıb. Ondan əvvəl başladılar. İndi də Ermənistanın Rusiyadan bu uzaqlaşması respublikanın ictimai meydanına atılmaqla yeni səviyyəyə çatır.

Əvvəllər "KTMT-də Ermənistanın olması, ya olmaması" məsələsi yüksək səviyyədə müzakirə olunmurdu. İndi isə İrəvanda rəsmi gündəm səviyyəsinə keçib.

*- Paşinyan KTMT liderlərinin sammitinə getməyəcək və bu ərəfədə İrəvan strukturdan Ermənistana yardım məsələsini, yəni Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının missiyasının Ermənistan-Azərbaycan sərhəddində yerləşdirilməsi məsələsini gündəlikdən çıxarmağı xahiş edib...*

- Ermənistan 6 ildir ki, KTMT-yə bacardığı qədər ziyan vurur. Həmişə nəyisə bəyənmirdi. İndi KTMT-də iştirakını dayandırmağa çalışırlar.

*- İrəvanın beynəlxalq platformalarda Rusiyanı ləkələmək cəhdlərinə diqqət yetirməyə bilməzsiniz...*

- Beləliklə, erməni cəmiyyəti Rusiya ilə tədricən qopmağa, Rusiyadan ayrılmağa hazırlaşır. Digər məsələ də budur ki, ermənilər Ermənistan Rusiyanın yanında olmasa, onları kimin müdafiə edəcəyini həqiqətən də anlamır. Paralel olaraq bu, İrəvanın ABŞ-a göstərmək istəyidir ki, bəli, Ermənistan sizinlədir, Ermənistan Qərbə doğru gedir.

Bu da nümayişdir: Rusiya dəstəkləmədiyi üçün biz ondan belə qisas alacağıq.



*- ABŞ dövlət katibinin köməkçisi Ceyms O`Brayen bu yaxınlarda Bakının sentyabr ayında Qarabağda həyata keçirdiyi antiterror tədbirləri ilə bağlı Azərbaycanı hədələyib. Niyə belə aqressiv reaksiya yarandı?*



- Bu, ABŞ-ın Ermənistana dəstəyinin nümayişidir. Bu, siyasi saxtakarlıqdır, Ermənistan üçün illüziya yaratmaq cəhdidir: biz sizinləyik, sadəcə olaraq Rusiyadan bir qədər uzaq olun. Biz nə istəsək, edəcəyik, sadəcə Rusiya ilə mümkün qədər tez qopub KTMT-də böhran yaradaq. Bu, Ermənistan üçün Vaşinqtonun göstərdiyi şirnidir. O, bu şirnini Ermənistanın qabağında saxlamaqda davam edəcək, amma onu yedizdirməyəcək, sadəcə şirnikləndirəcək.

ABŞ Azərbaycana qarşı gedə builməyəcək, çünki regionda önəmli ölkədir.

*- Amma Aİ də vaxtaşırı Azərbaycanı tənqid edir. Nə üçün?*

- Çünki Aİ-də bir çox proseslər fransızlar və onların lobbisi tərəfindən idarə olunur. Faktiki olaraq Avropa İttifaqı Zaqafqaziyanı Fransaya verdi. Fransanın əslində nə olduğu Azərbaycanda yaxşı başa düşülür. Bu, Avropanın ən ermənipərəst ölkəsidir. Nəzərə alsaq ki, Fransaya yardımı da Belçika, qismən də Türkiyəyə qarşı düşmənçiliklərinə görə İtaliya və Yunanıstan edir, o zaman Avropa İttifaqı daxilində "kritik" ittifaq yaradırlar.

Və gördüyümüz kimi, Azərbaycan sentyabr ayında Qarabağı tamamilə öz nəzarətinə qaytardıqdan sonra Qərbə qarşı bir az fərqli mövqe nümayiş etdirməyə başlayıb. O, Azərbaycan əleyhinə bəyanatlara cavab olaraq güzgü kimi reaksiya verməyə başlayıb.

Əgər əvvəllər Azərbaycan Aİ və ya Vaşinqtonun vasitəçilik platformasından istifadə edirdisə, indi ABŞ və Aİ-nin anti-Azərbaycan hücumlarına reaksiya verir və mahiyyətcə bu danışıqlar platformalarını bloklayır. Çünki bu platformalar açıq şəkildə Azərbaycanın maraqlarına qarşı çevrilməyə başladı.

Amma Azərbaycan burada Qərbdə parçalanma üzərində oynayır. Bakı praktiki, konstruktiv yanaşma nümayiş etdirməyə hazır olan Aİ dövlətləri ilə münasibətlər quracaq. Qarabağ məsələsinin həlli ilə Azərbaycan və Ermənistan arasında vasitəçilik ehtiyacı aradan qalxdı.

Bəli, ABŞ və Fransa özləri üçün yeni variantlar axtarırlar və Cənubi Qafqaza qayıtmaq üçün strategiyalar üzərində işləyirlər. Yerevan isə eyni zamanda Qərb tərəfdaşlarını vəziyyətə necə cəlb etmək variantlarını axtarır.

Qərbin Ermənistana dəstəyi onların İrəvanda düşündüyü qədər fədakar deyil. Beləliklə, Qərb qüvvələri Ermənistanla Azərbaycan arasında dayanmaq istəyir və bununla da deyirlər ki, siz bir-birinizlə ancaq bizim vasitəmizlə danışa bilərsiniz.

*- Aşağıdakı tendensiyalar da diqqət çəkir: Ermənistan indi mahiyyətcə Azərbaycan və Rusiyanın Zəngəzur dəhlizi ilə bağlı ideyasını özününkü hesab etməyə çalışır. Hər yerdə nəqliyyat əlaqələrinin blokdan çıxarılmasını təşviq etmək, onu "Ermənistan kəsişmədünyanın qovşağı" kimi təqdim etmək. Bakı buna cavab verdi ki, bir neçə ildir ki, Azərbaycan hakimiyyəti İrəvana konstruktiv şəkildə Zaqafqaziyada nəqliyyat əlaqələrini birgə blokdan çıxarmağı təklif edib, İrəvan isə imtina edib...*

- Düzünü desəm, Cənubi Qafqazda nəqliyyat kommunikasiyaları Ermənistansız asanlıqla həyata keçirilə bilər. Türkiyənin Acarıstandan keçməklə Gürcüstanla sərhədi var. Azərbaycanın Rusiya və İranla sərhədi var. Bunu Ermənistansız da etmək tamamilə mümkündür.

Budur, Ermənistan strateji əhəmiyyətli kəsişmələrdən uzaqda yerləşir. Yəqin ki, "erməni qovşağı"nın piarı başlayıbsa, bu o deməkdir ki, Ermənistan hakimiyyəti regionda sərfəli kommunikasiyalar qurmaq və Ermənistanın iştirakı olmadan qlobal layihələr həyata keçirməyin mümkün olduğunu başa düşüb.

Belə çıxır ki, Ermənistan heç kimə lazım deyil. Qərb üçün bu, yalnız Rusiyaya qarşı Cənubi Qafqazda sabitliyi pozmaq, Moskvaya problem yaratmaq alətidir. Və qonşuları üçün. Hamısı budur. Ermənistandan sadəcə olaraq hər tərəfdən yan keçmək olar. Ermənistan anti-Rusiya mövqeyinə görə ABŞ və Fransadan minnətdarlıq almaq istəyir.

Ermənistan daim qonşuları ətrafında manipulyasiyalar aparır. Qərbin Rusiyanı "təcrid etmək" ideyasına Ermənistan da Qərbin peyki kimi qoşuldu. Bu regionda. Amma gülməlidir. Bu, kiçik Ermənistan üçün necə mümkündür? O, Rusiyanı görməməzliyə vurmağa çalışacaq? Beləliklə, bölgədə hamı üçün problem ondan ibarətdir ki, Ermənistan qeyri-şəffaf tərəfdaşdır, regionda sabitliyin pozulmasına təkan verir, suveren olmayan, milli məqsədlər güdən deyil, regiondankənar oyunçuların qarşıya qoyduğu vəzifələrin həyata keçirilməsinə can atan tərəfdaşdır. Ermənistanın qonşuları üçün əsas problem budur.

Ermənistan getdikcə daha çox bəyan edir: biz də anti-Rusiyayıq, biz də anti-Rusiya kampaniyasına qoşulmağa hazırıq, sadəcə olaraq, bunu edirik.

Regionda baş verən qlobal geosiyasi dəyişikliklər fonunda dövlətlər qarşılıqlı əlaqələri gücləndirməyə çalışdıqda Ermənistan ayrılır və regional "parça"ya çevrilir.

Rusiyanın dəstəyi olmadan regionda necə mövcud olacaq? Eyni zamanda, Ermənistanın ölkənin özü, xalqı üçün faydalı olan yolu inkişaf etdirmək üçün başqa variantı var idi- region dövlətləri ilə qarşılıqlı əlaqə yolunu, qonşuları ilə iqtisadi və digər qarşılıqlı əlaqə yolunu. Ancaq o, "parça" olmağa qərar verdi. İcazə verin vurğulayım. Bu, Paşinyanın Ermənistan dövlətinin hazırkı lideri kimi müstəsna dərəcədə pis olması deyil. "Qarabağ klanı" da region üçün sabitliyi pozan və dəhşətli siyasət yürüdürdü. Bu, qatı millətçilik siyasəti, müharibə siyasəti idi. Və bu gün Qərb üçün Ermənistanda lider nə qədər sərt şəkildə anti-Rusiya mövqeyindədirsə, Cənubi Qafqazda sabitliyi pozmaq kimi son məqsədə yaxınlaşmaq şansı bir o qədər çox olur.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ

SƏS

23 noyabr
2023-cü il

# Bəzi azərbaycanlı qadınlar niyə əcnəbilərə üstünlük verirlər?

*PSİXOLOQ FİKRİ*



"Bəzi azərbaycanlı qadınların əcnəbi kişilərlə evliliyə üstünlük verməsi psixoloji aspektlərdən qaynaqlanır. İlk olaraq ona diqqət yetirməliyik ki, Azərbaycan kişiləri Avropa qadınları ilə evlənməyi sevmirlər. Buna səbəb əcnəbi qadınlarla bizim kişilərin arasında mentalitet fərqidir. Amma qadınlarımız əcnəbi kişilərə üstünlük verirlər".

Bu sözləri SİA-ya psixoloq Orxan Oruc deyib. "İnsan adətən öz şəxsi problem, kompleks və çətinliklərinin kökündə özündən çox ətrafını qınamağa meyillidir. Elə qadınların əcnəbilərlə ailə qurmasına əsas səbəblərdən biri cəmiyyətdə olan bu problemlərdən qaçmaq üçün ola bilər. Digər səbəb isə gündəlik həyatımızda olan türk serialları ilə bağlıdır. Hazırda Azərbaycan cəmiyyəti üçün ən çox izlənilən və baxılan kanallar türk serialları yayımlanan kanallardır. Bunun təsirini vurğulamamaq mümkün deyil. Çünki bəzi xanımlar həyatın türk filmlərindəki kimi gözəl və romantik olduğunu düşünürlər. İndiki dövrdə artıq ərə getmək, evlənmək yaşına çatmış gənc xanımlar şüuraltı olaraq neçə illərdir ki, yeniyetməlik yaşından türk filmlərinin psixoloji təsirlərinə məruz qalırlar",- deyə o əlavə edib.

Psixoloq deyir ki, amma qızların xaricə ərə getməyə meyilli olmasının yaxşı, yaxud pis bir şey olduğunu demək bir az çətindir: "Çünki, bu insanların şəxsi seçimidir, əgər xanım özünü orada daha xoşbəxt hiss edəcəksə, Azərbaycanımızı bir ev xanımı kimi təmsil edəcəksə, niyə də evlənməsin? Xanımların bəziləri isə işi ilə əlaqədar olaraq xaricə ərə gedə bilər. Yaxud da həqiqətən sevir və buna görə ailə həyatı qurur. Yəni, səbəblər müxtəlifdir. Həmin o xanımların hamısını dinləsək, hər birinin bununla bağlı öz həyat hekayəsi var. Nəhayət, biz öz qadınlarımızın qədrini bilməliyik ki, onlar əcnəbilərlə ailə həyatına üstünlük verməsinlər".

*Ləman Sərraf*

## De Byazi Azərbaycan millisindən getdi...



Dünən AFFA İcraiyyə Komitəsinin fövqaladə iclası keçirilib. Toplantıda futbol üzrə Azərbaycan yığmasının baş məşqçisi Canni De Byazinin millidəki taleyi ilə bağlı qərar verilib. İtaliyalı mütəxəssis iclasda cəmi 10 dəqiqə iştirak edib və sonra toplantını tərk edib. O, iclasda millimizdəki fəaliyyətini davam etdirmək istəmədiyini bildirib. İclasdan sonra jurnalistlərə açıqlama verən AFFA-nın baş katibi Sərxan Hacıyev təsdiq edib ki, toplantıda De Byazi müqaviləsinin uzadılmasını istəməyib.

Qeyd edək ki, De Byazinin müqaviləsi Avro-2024-ün seçmə mərhələsinin sonunda başa çatırdı.

## Türkiyə millisi qrup lideri kimi AVRO-2024-ə vəsiqə qazandı



Futbol üzrə AVRO-2024-ün seçmə mərhələsi başa çatıb. X turun son günündə 7 matç baş tutub. Bu görüşlərdən sonra seçmə mərhələdəki son vəsiqə sahibini tapıb. Xorvatiya və Uels D qrupundakı son vəsiqəni əldə etmək üçün qiyabi mübarizə aparıb. Son üç yerin sahibi isə gələn il təşkil olunacaq pley-offda bəlli olacaq.

Qeyd edək ki, bunadək Fransa, Türkiyə, İspaniya, Şotlandiya, Belçika, Avstriya, Portuqaliya, Macarıstan, Slovakiya, Albaniya, Danimarka, Niderland, Rumıniya, İsveçrə, İngiltərə, Serbiya, Çexiya, İtaliya və Sloveniya final mərhələsinə vəsiqə qazanıb. Almaniyadakı turnir 2024-cü il iyunun 14-dən iyulun 14-dək keçiriləcək.

**"SƏS" qəzetinə abunə kampaniyası davam edir!**



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Qaynar çay içməyin dəhşətli ZƏRƏRLƏRİ

*HƏKİM AÇIQLADI*



**"Xalqımızın çayxor olduğunu nəzərə alsaq, bir həkim olaraq insanlara qeyri-rasional və həddindən çox çay içilməsinin orqanizmə vurduğu zərərlərdən danışmaq istəyirəm". Bu sözləri SİA-ya açıqlamasında həkim-terapevt Sübhan Hacıyev deyib.**

Onun sözlərinə görə, çünki çay əgər 60 dərəcədən yüksək bir temperaturda içilərsə, nəinki boğaz və ağız boşluğu, eyni zamanda qida borusu, mədə, onikibarmaq bağırsaq zədələnmiş olur: "Bu zaman həmin orqanların selikli qişası qıcıqlanır və zaman-zaman termiki yanmalara gətirib çıxarır. Bu da öz növbəsində faringit, ezofagit, qastrit kimi xəstəliklərə gətirib çıxarır ki, bunların müalicəsi çox uzun bir vaxt alır".

Sübhan Hacıyev sözlərinə belə davam edib: "Eyni zamanda, yeməkdən həmən sonra çay içilməsi mədədə ifraz olunan mədə şirəsinin qarşısını alır, həzm prosesini pozaraq sonrakı dövrdə qəbizliyə və ciddi şəkildə köplərə gətirib çıxarır. Nəzərə almaq lazımdır ki, çayın tərkibində olan kofein və tanen xüsusilə də axşam saatlarında içdikdə yuxusuzluq, baş ağrıları yarada bilər. Buna görə çay içərkən onun ümumi hərarətinin 50 dərəcəsini keçməməsini nəzərə almaq lazımdır.

Eyni zamanda, çay yeni dəmlənməlidir. Çünki artıq bir neçə saat öncə dəmlənmiş çayın verdiyi fayda heç bir insana lazım gəlmir. Yəni, artıq çayın tərkibində olan maddələr zərərləşməyə başlayır, efir yağları əmələ gəlir. Bu da insana fayda yox zərər verir. Həm də çayın tərkibində az da olsa sidikqovucu diyorit effekt var və çay yerinə yaxşı olar ki, insanlarımız su qəbul etsinlər".

*Ayşən Vəli*

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.

QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR

**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4000**